Günəş Şərqdən doğur!

❒ № 126 (5407), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 17 iyul 2021-ci il (şənbə)



## Sərhəd boyunca gərginlik yaradılır

MN: Vəziyyətə görə məsuliyyət Ermənistanın üzərinə düşür

(səh.2)

# Şarl Mişel bölgəyə gəlir

## Avropa Şurasının Rusiya orbitindən uzaqlaşmaq istəyən ölkələrə diqqəti artır

**Avropa Şurası (AŞ) prezidenti Şarl Mişel bu həftə Azərbaycana səfər edəcək. Ş.Mişel iyulun 16-da İrəvana yola düşəcək.**

O, iyulun 17-də İrəvanda, iyulun 18-də isə Bakıda ölkənin rəhbərləri ilə görüşlər keçirəcək. Səfər zamanı Avropa Şurası ilə Azərbaycan arasında əməkdaşlığın gücləndirilməsinə dair müzakirələr aparılacaq.



(səh.4)



## "Sülh çağırışlarına atəş səsləri ilə cavab verilir"

### General Yücel Karaüz: “Həssas dönəmdə xətaya yol vermək olmaz”

“Azərbaycan-Ermənistan sərhədində yaşanan olaylar, erməni tərəfinin təxribatları, Qarabağdakı separatçıların terror cəhdləri Prezident İlham Əliyevin ”Azərbaycan sülh çağırışı edir, amma Ermənistan bunu istəmir” ifadəsinin təsdiqi və sübutudur”.

(səh.8)

# Rəqabət yarandı, qiymətlər ucuzlaşdı

### 5-6 ildir taksi xidmətində qiymətlər bahalaşmayıb

*Azərbaycanda bütün hallarda taksi hazırda ən sərfəli və ucuz nəqliyyatdır*



(səh.9)

- **"Türkün olduğu yerdə zülm olmaz"**
  Ərdoğan: "Qarabağın azadlığı mübarizəsində Azərbaycana dəstəyimiz bütün dünyanın diqqətini çəkib" (səh.2)

- **Ağdamda Xaçınçay su anbarının ətrafı minalardan təmizlənir**
  Bir qrup jurnalist proseslə yaxından tanış olub (səh.5)

- **Daha 169 yeni yoluxma faktı qeydə alınıb**
  92 nəfər müalicə olunaraq sağalıb, ölən yoxdur (səh.9)

- **“Pop İt"lərdən qaçın!**
  Uşaqların şüuruna yeridilən təbliğatın qarşısı alınmasa, ciddi fəsadları olacaq (səh.13)

# Prezident bir neçə ölkəyə yeni səfir təyin etdi

## Azərbaycanın Qazaxıstan, Belarus, Tacikistan və Pakistandakı səfirləri geri çağırılıb



**Azərbaycan Prezidenti İlham Əliyev bir neçə ölkəyə yeni səfirlər təyin edib. Dövlət başçısı bununla bağlı sərəncamlar imzalayıb. Sənədlərə görə, Rəşad Eynəddin oğlu Məmmədov Azərbaycan Respublikasının Qazaxıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılıb.**

Ağalar Rahim oğlu Atamoğlanov Azərbaycan Respublikasının Qazaxıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilib.

Lətif Seyfəddin oğlu Qəndilov Azərbaycan Respublikasının Belarus Respublikasında fövqəladə və səlahiyyətli səfiri və eyni zamanda Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinin nizamnamə və digər orqanları yanında daimi səlahiyyətli nümayəndəsi vəzifələrindən geri çağırılıb.

Ülvi Vaqif oğlu Baxşəliyev Azərbaycan Respublikasının Belarus Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilib.

Həsən Dilsuz oğlu Məmmədzadə Azərbaycan Respublikasının Tacikistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılıb.

Əlimirzamin Qəvvam oğlu Əskərov Azərbaycan Respublikasının Tacikistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilib.

Əli Fikrət oğlu Əlizadə Azərbaycan Respublikasının Pakistan İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılıb.

Xəzər Nadir oğlu Fərhadov Azərbaycan Respublikasının Pakistan İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilib.

## Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İdarə Heyətinə sədr təyin edilib

**Prezident İlham Əliyev M.Q.Abbasovun Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İdarə Heyətinin sədri təyin edilməsi haqqında Sərəncam imzalayıb.**

Trend xəbər verir ki, Sərəncamla Məftun Qurban oğlu Abbasov Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İdarə Heyətinin sədri təyin edilib.

## Sərhəd boyunca gərginlik yaradılır

### MN: Vəziyyətə görə məsuliyyət Ermənistanın üzərinə düşür



**İyulun 16-sı saat 10.00 və 13.00 radələrində Ermənistan Silahlı Qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədinin Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini müxtəlif çaplı silahlardan atəşə tutub.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən xəbərə görə, qarşı tərəfin susdurulması məqsədilə Ermənistan silahlı qüvvələrinin Vedi rayonunun Arazdəyən kəndi yaxınlığında yerləşən bölmələrinə cavab atəşi açılıb.

Azərbaycan Ordusunun şəxsi heyəti arasında həlak olan və yaralanan yoxdur.

"Bir daha qeyd edirik ki, iki ölkənin dövlət sərhədi boyunca gərginliyin yaradılmasına görə məsuliyyət tam şəkildə Ermənistanın üzərinə düşür".



## "Türkün olduğu yerdə zülm olmaz"

### Ərdoğan: "Qarabağın azadlığı mübarizəsində Azərbaycana dəstəyimiz bütün dünyanın diqqətini çəkib"

**"Qarabağın azadlığı mübarizəsində azərbaycanlı qardaşlarımıza verdiyimiz dəstək və 44 günlük zəfər bütün dünyanın diqqətini çəkib".**

APA-nın xəbərinə görə, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

Ərdoğan qeyd edib ki, Türkiyənin heç kimin torpağında gözü yoxdur.

"Türkün olduğu yerdə zülm olmaz. Türkün olduğu yerdə məzlum göz yaşı tökməz", - deyə Türkiyə Prezidenti vurğulayıb.

Ərdoğan onu da qeyd edib ki, Türkiyə Silahlı Qüvvələrinin ən yüksək səviyyəyə çatması həyati əhəmiyyətə malikdir.

## Azərbaycan XİN Almaniya və Belçikaya kömək təklif etdi

**Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) sel fəlakəti ilə əlaqədar Almaniya və Belçikaya başsağlığı verib.**

"Avropanın qərbindəki ekstremal hava şəraitinin dağıdıcı nəticələri narahatlıq doğurur. Almaniya və Belçikada daşqın qurbanlarına başsağlığı veririk. Yağışın dağıdıcı nəticələrinin aradan qaldırılmasında hər iki ölkə Almaniya və Belçika ilə birlikdəyik", - deyə Azərbaycan Xarici İşlər Nazirliyinin rəsmi "Twitter" səhifəsində yazılıb.

# Ağır cəza gəlir



## Azyaşlı övladını dilənməyə məcbur edən ata-ananın valideynlik hüququ məhdudlaşdırıla bilər

**Bəzi kütləvi informasiya vasitələri və sosial media səhifələrində Suraxanı rayonunda Qaraçuxur məscidinin qarşısında iki yaşlı uşağın valideynləri tərəfindən diləndirilməsi barədə məlumatlar yayılıb.**

Baş Prokurorluğun mətbuat xidmətindən APA-ya verilən məlumata görə, qeyd edilənlərlə bağlı Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsində (CTKİ) araşdırma aparılaraq Suraxanı rayonu ərazisində yaşayan QİÇS və narkomaniya xəstəliklərindən əziyyət çəkən Arzu Mehdiyeva ilə Valeh Balacayevin faktiki nikahından doğulmuş 2019-cu il təvəllüdlü qızlarının həyatı üçün təhlükənin olması müəyyən edilib.

Bundan başqa, CTKİ-də daha iki azyaşlı uşağın Nərimanov rayonu ərazisində diləndirilməsi və antisanitar şəraitdə yaşaması ilə bağlı daxil olmuş məlumat əsasında araşdırma aparılıb.

Yoxlama zamanı valideynləri narkotik vasitələrin istifadəçisi olan iki azyaşlı uşağın küçələrdə dilənməyə sövq edilməsi, həmçinin baxımsız, antisanitar və sosial təhlükədə saxlanılması müəyyən edilib.

Mülki-prosessual və ailə qanunvericiliyinin tələblərinə müvafiq olaraq qeyd edilən hər iki halda Baş Prokurorluq tərəfindən azyaşlı uşaqların gələcək təhlükəsizliyini təmin etmək məqsədi ilə onların valideynlərinin valideynlik hüquqlarının məhdudlaşdırılması barədə müvafiq rayon məhkəmələri qarşısında mülki iddialar qaldırılıb.

*Nəticəsi barədə ictimaiyyətə məlumat veriləcək.*



## Texniki Universitetə yeni prorektor təyin olunub

**Təhsil naziri Emin Əmrullayevin əmrinə əsasən, Rəşad Kazımov Azərbaycan Texniki Universitetində (AzTU) Maliyyə-təsərrüfat işləri üzrə prorektor vəzifəsinə təyin olunub.**

AzTU-dan APA-ya verilən məlumata görə, rektor Vilayət Vəliyev yeni prorektoru kollektivə təqdim edib və ona fəaliyyətində uğurlar arzulayıb.

Rektor bildirib ki, Maliyyə-təsərrüfat işləri üzrə prorektor vəzifəsi AzTU-da yeni təsis olunub.

*Qeyd edək ki, Rəşad Kazımov 1993-1997-ci illərdə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu (indiki Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası) beynəlxalq münasibətlər ixtisası üzrə bakalavr, 1997-1999-cu illərdə isə dünya siyasi prosesləri və beynəlxalq əlaqələr nəzəriyyəsi ixtisasi üzrə magistr pilləsini bitirib. 2003-2006-cı illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin aspiranturasında təhsil alıb. O, iqtisad üzrə fəlsəfə doktorudur. Rəşad Kazımov hazırkı təyinatına kimi AzTU-nun "İqtisadiyyat və təminat" şöbəsinin müdiri vəzifəsində işləyib.*

# Avropa ölkələri Azərbaycandan təbii qaz gözləyir

**Problem ondan ibarətdir ki, Azərbaycanın özünün Avropaya sata biləcəyi qazın həcmi illik maksimum 10 milyard kubmetr həddindədir**



Yunanıstan və Şimali Makedoniya qaz kəmərinin tikintisi ilə bağlı razılaşma imzalayıblar. Razılaşmaya əsasən, Şimali Makedoniya Trans-Adriatik Qaz Kəməri (TAP) layihəsi çərçivəsində Azərbaycandan mavi yanacaq alacaq. İlk mərhələdə qaz kəmərinin gücü illik 1,5 milyard kubmetr həcmində qiymətləndirilir.

Gələcəkdə isə 3 milyard kubmetrə qədər artırılması nəzərdə tutulur. Layihənin reallaşması 118,7 milyon dollar həcmində dəyərləndirilir ki, bu məbləğin də 64 milyonu Yunanıstanın "Desfa" sistem operatoru tərəfindən investisiya olunacaq. Yeni kəmərin ümumi uzunluğu 160 kilometrdir və 50 kilometri Yunanıstan ərazisindən keçəcək. Boru kəməri birləşdiricisi Yunanıstan qaz kəməri şəbəkəsini ölkənin şimali liman şəhəri olan yaxınlığındakı klapan stansiyasında Makedoniya sərhədi ilə Avrozonanı birləşdirəcək. Buradan qazı Türkiyədən, Yunanıstandan və Albaniyadan keçirərək Azərbaycandan İtaliyanın cənubuna aparan Trans-Adriatik Qaz Boru Kəmərinə qoşulacaq. Rumıniya və Bolqarıstan da Azərbaycandan təbii qaz gözləyir. Azərbaycan ilk dəfə qazı TAP ilə Avropaya 31 dekabr 2020-ci ildə tədarük etməyə başlayıb. TAP Cənub Qaz Dəhlizinin bir qoludur və bu kəmər vasitəsilə Azərbaycandan Avropa bazarlarına illik 10 milyard kubmetr təbii qazın nəql olunması nəzərdə tutulur. Qaz kəmərinin gücü onun ötürmə qabiliyyətini iki dəfə, yəni illik 20 milyard kubmetrə qədər artırmağa imkan verir.

**İqtisadçı Natiq Cəfərli "Şərq"ə bildirib ki, Avropa Birliyi ölkələri, əsasən qitənin cənubundakı dövlətlər üçün Cənub Qaz Dəhlizi, TANAP və TAP layihələri çox önəmlidir. Ekspertin sözlərinə görə, TAP Avropa ölkələrinin qaz enerjisindən, xüsusən Rusiya qazından asılılığın azaldılmasında mühüm rol oynaya bilər:** "Problem ondan ibarətdir ki, Azərbaycanın özünün Avropaya sata biləcəyi qazın həcmi illik maksimum 10 milyard kubmetr həddindədir. Bundan artıq qaz satmağımız mümkün deyil. Halbuki, ümumilikdə təqribən 18-20 milyard kubmetr qaz ixrac etməyi düşünürük. Amma Gürcüstan və Türkiyədə satılacaq qazın həcmini çıxdıqdan sonra Avropaya ən yaxşı halda 11 milyard kubmetr qaz çıxarmaq imkanımız olur".

**N.Cəfərli vurğulayıb ki, gözləntilər çoxdur, bizdən qaz istəyənlər çoxalır: "Avropa ölkələri Azərbaycan qazına ciddi maraq göstərirlər.** Avropaya gedən kəmərin həcm olaraq gələcəkdə artırılması düşünülür. Çox güman, Türkmənistanla birlikdə "Dostluq" yatağının işlədilməsindən sonra türkmən qazının bir hissəsi də bu kəmər vasitəsi ilə Avropaya çatdırılacaq. Bu da Azərbaycanın tranzit imkanlarını və qaz satış imkanlarını genişləndirəcək. Gələcəkdə TANAP və TAP kəmərlərinə Şimali İraqdan, yaxud İrandan da qaz verilməsi mümkündür. Bu baş verərsə, Avropaya həmin kəmərlər vasitəsi ilə 10 milyard Azərbaycan qazı, 20-22 milyard kubmetr isə başqa ölkələrin qazı çatdırıla bilər".

**İsmayıl Qocayev**



# Bakı metrosu üçün istehsal olunan dörd qatar Bakıya çatdırılıb

**Rusiyanın "Metrovaqonmaş" Səhmdar Cəmiyyətinin Bakı metropoliteni üçün istehsal etdiyi hər biri 5 vaqondan ibarət olan 4 qatar tərkibi Bakıya çatdırılıb.**

Bunu "APA-Economics"ə "Bakı Metropoliteni" QSC-nin mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov deyib.

Onun sözlərinə görə, hazırda qatarların 2-si depoda ikisi isə Keşlə qəsəbəsindədir. Qatarlar depoya çatdırıldıqdan sonra təxminən iki həftə ərzində sazlama, tənzimləmə və sınaq işləri aparılacaq və sonra istismara veriləcək.

Beləliklə, metropoliteninin yeni qatarların sayı 19-a çatdırılacaq. İstismar müddəti başa çatan qatarlar isə silinərək utilizasiya olunacaq.

*Xatırladaq ki, hazırda "Bakı Metropoliteni"ndə 280 qatar mövcuddur.*

# Bakıya atılan raket!

## "Moskva güc görsə, geri çəkiləcək"



**Qarabağ ətrafında cərəyan edən siyasi proseslər davam edir. Heç kimə sirr deyil ki, düşmən çirkin planlarından əl çəkməyib. Ona görə də hər cür təxribata, hücuma hazır olmalıyıq.**

Əslində qalxanımız da var- "İsgəndər-M" raketi. Düşmən vaxtında bilməli idi ki, biz onun bu düşünülməmiş addımından, daha doğrusu, səhvindən sonadək istifadə edəcəyik və etməliyik.

**Politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə açıqlamasında deyib ki, sözügedən məsələyə necə yanaşmağımız daha çox Rusiyanın manevrlərindən asılı olacaq:**

"Əvvəllər Moskvanın, həqiqətən, vasitəçiliyindən əmin olduğumuza görə bu məsələni ciddi qabartmırdıq. İndiki halda da məsələnin üstünə çox düşəcəyimizə inanmıram.

Çünki bu, Kreml ilə diplomatik skandala səbəb ola bilər. Lakin təzyiqlər göz qabağındadır. Rusiya daha da üstümüzə gəlsə, məsələ hətta prezidentlər səviyyəsində müzakirə edilməlidir.

Moskva qarşısında güc görsə, geri çəkiləcək. Biz "İsgəndər-M" məsələsini gündəmə gətirməklə təxribatları neytrallaşdıra bilərik.

Özü də təkcə Şuşaya yox, həm də Bakıya atılan raketi yenidən ictimailəşdirməliyik".

**Kənan**

# Şimali Kipr Türk Cümhuriyyəti yunanlarla "dil tapmağa" çalışır

## Ərdoğan bu səfəri ilə ŞKTC-ni yenidən Ankaranın nəzarətinə qaytarmaq istəyir

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şimali Kiprə edəcəyi səfər və "iyulun 20-də bütün dünyaya lazımi mesajları verəcəyəm" açıqlaması ABŞ, Avropa Birliyi, Yunanıstan və Cənubi Kipri təlaşlandırıb.**

BBC Ərdoğanın səfər çərçivəsində Keçidqalada dron bazasının qurulduğunu açıqlayacağını iddia edib. Media qurumu qeyd edib ki, məsələ də Türkiyənin adanın şimalında daimi hərbi bazalar qurma ehtimalı ilə bağlıdır.

**Politoloq Azər Rəşidoğlu "Şərq"ə Şimali Kipr Türk Cümhuriyyəti beynəlxalq aləmdə Türkiyədən başqa heç bir dövlət tərəfindən rəsmi olaraq tanınmır.** Ana-



Cənubi Kipr əməliyyatlarının 47-ci ildönümündə reallaşacaq səfər zamanı AB və ABŞ-ın diqqəti adada olacaq. Mənbə, eyni zamanda, Ərdoğanın Şimali Kiprin müstəqilliyinin beynəlxalq səviyyədə tanınması yönündə mühüm mesajlar verəcəyini də istisna etməyib. Yunan mətbuatı Türkiyənin Kipr adası yaxınlığında yeni təbii qaz ehtiyatları tapdığını iddia edib. Cənubi Kipr və Yunanıstan Ərdoğanın səfər çərçivəsində bunu açıqlayacağından narahatdır. Yunanıstanın "Kathimerini" qəzeti isə Türkiyənin qazma gəmilərinin yenidən Aralıq dənizinin şərqində fəaliyyətə başlayacağını yazıb. Yunanıstan və Cənubi Kipri narahat edən bir başqa

litik vurğulayıb ki, son zamanlar Türkiyə ilə Şimali Kipr Türk Cümhuriyyəti arasında münasibətlərdə də soyuqluq yaranıb: "Uzun müddətdir ki, Şimali Kipr Türk Cümhuriyyəti Türkiyənin nəzarətindən çıxmağa, yunanlarla "dil tapmağa" çalışır. Əfsanəvi lider Rauf Denktaşın vəfatından sonra Şimali Kipr Türk Cümhuriyyəti Ankaradan uzaqlaşmaq xətti seçdi. Maraqlıdır ki, Şimali Kiprdə FETÖ güclüdür. Türkiyə Prezidenti Ərdoğan Şimali Kipr Türk Cümhuriyyəti ilə bağlı məsələləri ikinci plana atmaqla yaranan soyuqluğu aradan qaldırmaq niyyətindədir. Şimali Kiprin Aİ-yə tam üzvlüyü üçün göstərilən təşəbbüslər də Ankaraya qarşı düşünülmüş senaridir".

**A.Rəşidoğlu bir fakta da diqqət yönəldib:** "Yəhudi iş adamları Şimali Kipr Türk Respublikasında kütləvi şəkildə ərazilər alaraq orada lüks villalar və binalar tikdirirlər. Şimali Kiprin ən məşhur yerlərində ərazilər İsrail şirkətlərinin nəzarətinə keçir. Böyükkonuk, Bahçeli, Tatlısu, Karpaz, Dipkarpaz, Yenierenköy və Sadrazamköy kimi kəndlərdə artıq satışa çıxarılacaq ərazilərin qalmadığı bildirilir. Lapta kəndində isə İsrailin dəstəyi ilə sinaqoq tikilib. Ərdoğan bu səfəri ilə ŞKTC-ni yenidən Ankaranın nəzarətinə qaytarmaq istəyir".

**İsmayıl Qocayev**

# Şarl Mişel bölgəyə gəlir



## Avropa Şurasının Rusiya orbitindən uzaqlaşmaq istəyən ölkələrə diqqəti artır

**Avropa Şurası (AŞ) prezidenti Şarl Mişel bu həftə Azərbaycana səfər edəcək. Ş.Mişel iyulun 16-da İrəvana yola düşəcək. O, iyulun 17-də İrəvanda, iyulun 18-də isə Bakıda ölkənin rəhbərləri ilə görüşlər keçirəcək.**

Səfər zamanı Avropa Şurası ilə Azərbaycan arasında əməkdaşlığın gücləndirilməsinə dair müzakirələr aparılacaq.

İyulun 19-da isə AŞ rəhbəri Gürcüstanın Avropa İttifaqına inteqrasiyasına dair 17-ci dəfə keçirilən Batumi Beynəlxalq Konfransına da qatılacaq.

**Məlum səfərlə bağlı ”Şərq”ə danışan politoloq Natiq Miri vurğulayıb ki, AŞ prezidentinin Rusiya orbitindən uzaqlaşmaq istəyində olan ölkələrə səfəri qurumun bölgəyə xüsusi önəm verməsindən irəli gəlir:** ”Səfər çərçivəsində üç Cənubi Qafqaz ölkəsi ziyarət olunacaq. AŞ Ermənistanın iqtisadi dirçəlişini təmin etmək üçün 1.5 milyard avro qrant ayırıb. Gələcək perspektivdə Ermənistanın iqtisadi dirçəlişini təmin etmək proqramı doğru yerinə yetirilərsə, bu məbləğin 2.6 milyard avroya qədər qaldırılacağı bildirilib. Sözügedən qurumun Cənubi Qafqazla bağlı ciddi xarici siyasi maraqları var. Əlbəttə, Ermənistanı iqtisadi yöndə dəstəkləməklə onu Rusiyanın orbitindən çıxarmaq hədəflənir. Çünki Avropa anlayır ki, Parlament seçkilərində qalib gələn Nikol Paşinyanın rəhbərlik etdiyi siyasi güc mərkəzi Rusiyanı o qədər də sevmir. Məhz Qərb institutlarının dəstəyi ilə hakimiyyətə gələn Paşinyan həqiqətən də ciddi dəstək olarsa, tədricən Rusiya orbitindən uzaqlaşmağa meyillidir. Bu xüsusda iqtisadiyyatı, hərbi durumu çökmüş Ermənistanı ayağa qaldırmaq bu gün AŞ strukturları üçün prioritetə çevrilib. 2.6 milyard avro əslində cırtdan Ermənistan üçün böyük məbləğdir”.

**N.Miri söyləyib ki, Azərbaycan getdikcə güclənən və Qərblə Şərq, Şimalla Cənub arasında yaradılan yeni kommunikasiya sistemlərinin qovşağında yerləşən geostrateji bir ölkədir:** ”Ona görə də Azərbaycansız Cənubi Qafqazda hər hansı bir uğura imza atmaq mümkün deyil. Ona görə də AŞ dövlətimizə xüsusi önəm verir. Nəhayət, Avropa Birliyinin Cənubi Qafqaza girişi olan Gürcüstanın da bu qurum tərəfindən dəstəklənməsi bundan sonra davam edəcək. Çünki Gürcüstan Avropa üçün xüsusi önəm daşıyır və Azərbaycanın Qarabağ problemi həll olunmuşkən, Gürcüstanın hələ də ərazi bütövlüyü ilə bağlı ciddi problemləri var. Bəzi standartlar var ki, onlar Gürcüstanda hələ də Avropa meyarlarına uyğun gəlmir. Ona görə də AŞ prezidenti hər üç ölkəyə səfər etməklə bu standartların tədricən Cənubi Qafqazda oturuşmasına çalışacaq. Fikrimcə, əsas danışıqlar da təxminən bu yöndə olacaq”.

**Yeganə Bayramova**



# Zəngəzura, Göyçəyə, İrəvana qayıdacağıq

## Ermənistandakı tarixi ərazilərimizə iddiamız dəyişməyib

**”Prezident İlham Əliyevin Xocasəndə şəhid ailələri və müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim edilməsi mərasimindəki çıxışı zamanı verdiyi mühüm açıqlamalar, əslində, əvvəllər dediyi fikirlərin məntiqi davamı və yekunudur: biz qayıdacağıq!”.**



**Bu sözləri ”Şərq”ə açıqlamasında millət vəkili Əziz Ələkbərli söyləyib.**

Deputatın sözlərinə görə, cənab Prezident dəfələrlə bildirib ki, 1988-ci ildə indiki Ermənistan ərazisindən bizim 300 min nəfərə yaxın soydaşımız minillər boyu yaşadıqları ərazilərdən qovulub çıxarılıblar: ”Halbuki, o ərazilər bizim tarixi torpaqlarımızdır, biz mütləq o torpaqlara qayıdacağıq, bu bizim strateji hədəfimizdir. Və cənab Prezident Xocasəndə yenə də bildirdi ki, ”Şərqi Zəngəzur varsa, deməli, Qərbi Zəngəzur da var.

Bəli, Qərbi Zəngəzur bizim dədə-baba torpağımızdır, biz oraya qayıtmalıyıq və qayıdacağıq və qayıdırıq. Heç kim bizi dayandıra bilməz. Mütləq qayıdacağıq, çünki bunun başqa yolu yoxdur”.

Cənab Prezidentin bu çıxışından sonra Azərbaycanda möhtəşəm bir ruh yüksəkliyi, Ermənistanda isə dəhşətli bir vahimə yaşanmaqdadır. Bu da çox normaldır. Çünki hər kəs çox gözəl bilir ki, Azərbaycan Prezidenti nə vaxt nə deyibsə, onu da edib, bu gün də deyirsə ki, Zəngəzura, Göyçəyə, İrəvana qayıdacağıq, deməli, mütləq qayıdacağıq”.

**Ə.Ələkbərli qeyd edib ki, qorxuya düşən ermənilər ənənəvi olaraq haray-həşir qopartmaqdadırlar:** ”Guya ki, Prezident İlham Əliyev ərazi iddiası ilə çıxış edib. Halbuki, cənab Prezident dəfələrlə bildirib ki, bizim Ermənistana ərazi iddiamız yoxdur. Lakin bu, o anlama gəlmir ki, biz öz tarixi torpaqlarımızdan imtina edirik. Bəli, Azərbaycanın Ermənistana ərazi iddiası yoxdur, amma Ermənistandakı tarixi ərazilərimizə iddiamız var. Həm də haqlı iddiamız var! Bunlar ayrı-ayrı məsələlərdir. Belə hesab edirəm ki, Azərbaycan xalqı tezliklə Müzəffər Ali Baş Komandanımızın yeni-yeni tarixi addımlarının şahidi olacaq”.

**Yeganə Bayramova**

# Ermənistan bir-bir qonşularından şillə alır

## *İran prezidentinin Bakıya ünvanladığı təbrik İrəvanda narahatçılığa səbəb olub*

İranın yeni Prezidenti Seyid İbrahim Rəisinin Azərbaycan Prezidenti İlham Əliyevi təbrik etməsi Ermənistanda narahatlığa səbəb olub. Erməni siyasətçilər İran rəhbərlərinin müharibədən sonra ərazi bütövlüyümüzün bərpasından aşkar şəkildə məmnun qalmalarını ifadə etmələrindən gileylənirlər.



Məsələn, ”Çiçəklənən Ermənistan” partiyasının nümayəndəsi Arman Abovyan Rəisinin Azərbaycan Prezidentinə ünvanladığı xoş sözlərdən danışıb. Yerli mediaya açıqlama verən Abovyan Ermənistana yaxınlığı ilə seçilən İranın Qarabağ məsələsində Azərbaycanın yanında olmasından gileylənib. İran prezidentinin ”Azərbaycanın ərazilərini uğurla azad etməsi” cümləsini ”hamımızın üzünə vurulan daha bir şillə” kimi dəyərləndirən erməni siyasətçi xalqı iranlıları günahlandırmamağa çağırıb. O qeyd edib ki, İran sadəcə erməni səlahiyyətlilərin xarici cəbhədəki absurd davranışlarının nəticəsindən çıxış edərək belə addım atıb.

**Mövzu ilə bağlı Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, politoloq Tural İsmayılov ”Şərq”ə açıqlamasında bildirib ki, Ermənistanda təkcə iqtidar komandasında təmsil olunanlar deyil, müxalifətdə təmsil olunanlar da daim belə absurd açıqlamalar verirlər.** Politoloq qeyd edib ki, normalda müxalifət nümayəndələri Ermənistanda hökm sürən faşist ritorikalarından uzaqlaşdırmaq üçün alternativ fikirlər və tezislər irəli sürməlidir: ”Lakin görünən odur ki, onlar Ermənistanda mənasız radikal milliyyətçilik eyforiyasının qalmasında maraqlıdırlar. Bu baxımdan ”Çiçəklənən Ermənistan” partiyasının nümayəndəsi Arman Abovyan, istərsə də digər müxalif yönümlü şəxslər daimi işğal və Qarabağla bağlı hücumçu və aqressiv fikirlər səsləndirirlər. Bu da erməni siyasi kimliyini və dünyagörüşünün əsl mahiyyətini ortaya qoyur”.

**Politoloq qeyd edib ki, İranın yeni Prezidenti Seyid İbrahim Rəisinin Azərbaycan Prezidenti İlham Əliyevi təbrik etməsi çox normal və yerində atılmış bir addımdır:** ”Çünki cənab Prezident də dəfələrlə vurğulayıb ki, İran İslam Respublikası Azərbaycanla dost ölkədir. Hətta işğaldan azad edilmiş bölgələrə səfəri zamanı prezidentimiz İranı dost hesab etməsiylə bağlı fikirlər də səsləndirib. Bilirsiniz ki, İranla Azərbaycan arasında tarixi əlaqələr mövcuddur və iki ölkənin qonşuluq siyasəti var. Görünür, İranla Azərbaycan əlaqələrinin mühüm və lazımlı olduğunu İranın yeni Prezidenti Rəisi də başa düşür. Həmçinin, cənab prezident tərəfindən irəli sürülmüş 3+3 formatına daha əvvəl İran xarici işlər naziri bu bölgəyə səfərində müsbət yanaşdığını vurğulamışdı. Düşünürəm ki, Zəngəzur dəhlizinin açılması daxil olmaqla, ”Altılıq platforma”da İran öz marağını yüksək şəkildə ifadə edir. Bu baxımdan İran prezidentinin İlham Əliyevi təbrik etməsi çox mühümdür. Ermənistanın bundan narahat olması isə klassik erməni şüurunun və dünyagörüşünün hələ də hansı səviyyədə olmasının bariz nümunəsidir”.

**Aynurə Pənahqızı**

# Sərhəddəki insidentlər Rusiyanın xeyrinə işləyir



## Əsas məqsəd kövrək sülhü "yaralamaq" və Azərbaycanı təzyiq altında saxlamağa cəhddir

"Rusiyalı ekspertlər hesab edirlər ki, Ermənistanın Azərbaycana qarşı növbəti təxribatları, sülhə zərbə vurmaq cəhdləri Putinə qarşı yönəlib. Çünki Ermənistana cavabdeh Rusiyadır və 10 noyabr sazişində Putinin imzası, təşəbbüsü Ermənistanı xilas edib".

Bunu "Cümhuriyyət" qəzetinin və "Cebhe.info" saytının baş redaktoru, siyasi şərhçi Rafail Becanov deyib. Baş redaktor bildirib ki, Ermənistan hakimiyyəti indi törətdiyi əməllərlə Rusiyanın onlara nəzarət imkanlarını itirdiyini və sülhə töhfə verə bilmədiyini göstərməyə çalışır. Bununla da Putinin nüfuzuna xələl yetirilir: "İlk baxışdan məntiqlidir. Amma alt qatda olanlar həqiqətən budurmu? Doğrudanmı Paşinyan və tərəfdarları o qədər güclənib ki, Putinə qarşı belə bir demarş başladırlar? Təbii ki, inandırıcı deyil. Belə olsaydı, Rusiya çoxdan Ermənistan daxilindəki "kolonları"nı hərəkətə gətirər və Paşinyana yerini göstərərdi. Lakin Rusiyanın Ermənistandakı "kolonları" susur və hadisələrin gedişini izləyirlər. Şuşanın, Kəlbəcərin və hətta Naxçıvanın atəşə tutulması regiondakı kövrək sülhün dayanıqlı olmaması anlamındadır. Eyni zamanda Rusiyanın mesajının Ermənistanın əliylə görüntülənməsidir. Bu, genişmiqyaslı planın elementlərindən biridir və alt qatda Şuşa bəyannaməsinə qarşıdır".

**Ekspertin fikrincə, bütün bunların Paşinyanın Rusiya səfərində müzakirə edildiyi istisna edilmir:** "Əsas məqsəd kövrək sülhü "yaralamaq" və Azərbaycanı təzyiq altında saxlamağa cəhddir. Konkret olaraq isə bu qarışıqlıq Ermənistandan çox Rusiyaya lazımdır. Çünki Rusiya Azərbaycanla Türkiyə arasındakı münasibətlərin dərinləşməsindən və Azərbaycanın ictimai seqmentində Türkiyə ordusunun hansısa formada Şuşada yerləşdirilməsi ilə bağlı fikirlərin tirajlanmasından çox narahatdır. Ona görə Ermənistanın təxribatını stimullaşdırır. Rusiyanın bu mövqeyi isə Paşinyana indiki durumda dividend gətirir. Ona hakimiyyətini möhkəmlətmək və rəqiblərini sıradan çıxarmaq üçün şans yaradır. Bu səbəbdən Paşinyana indiki məqamda Rusiyanın əlinə oynamaq sərf edir. Azərbaycana qarşı təxribatlar və sülh prosesinin əngəllənməsində Rusiya ilə Paşinyanın maraqları hazırda uzlaşır. Biri öz hakimiyyətini möhkəmlədir, digəri isə əvəzedilməzliyini göstərməyə çalışır".

**İsmayıl**



# Təxribatlar ara verməyəcək

## "Biz öz işimizi görməli, atəş nöqtələrini susdurmalıyıq"

**Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı baş verib. Naxçıvan istiqamətindəki mövqelərimiz atəşə tutulub. Bu barədə Əlahiddə Ümumqoşun Ordudan məlumat verilib.**

Bölmələrimizin şəxsi heyəti və texnikasında itki və zərərçəkən yoxdur.

Düşmən cavab atəşi ilə susdurulub.

**Mövcud durumu "Şərq"ə şərh edən "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlunun fikrincə, hərbi əməliyyatları davam etdirməliyik:** "Bəzilərimiz elə düşünürdük ki, 44 günlük müharibə ermənilərə dərs oldu və daha təxribat törətməyə qorxarlar. Baxmayaraq ki, çoxlu itki verdilər, texnikalarının yarıdan çoxunu itirdilər, ancaq yenə də nəticə çıxarmadılar.

Hətta böyük dövlətlərin əlində alətə çevriliblər, onlar da bu təxribatlara qəsdlə rəvac verirlər. Biz öz işimizi görməli, atəş nöqtələrini susdurmalıyıq.

Qarabağda hələ görəcəyimiz işlər çoxdur. Müharibədə qələbə çalsaq da, təəssüf ki, münaqişə bitməyib. Münaqişə o zaman bitəcək ki, Şuşanın kəndlərinə daxil olacağıq, Qarabağdakı bütün separatçıları tərksilah edəcəyik, Qarabağdakı ermənilər Azərbaycan konstitutsiya və qanunları ilə yaşayacaqlar.

Laçın dəhlizi başda olmaqla bütün sərhədlərə nəzarət bizdə olduqda münaqişəyə son qoyulacaq. Bunları yerinə yetirməsək, belə təxribatlar davam edəcək".

**Yeganə**

# Əlimizdə ciddi "kozır" var

## Qarabağdakı erməni hərbi birləşmələrini zərərsizləşdirməyin zamanıdır



Torpaqlarımızı azad etdik. İndi əsas məqsədimiz Böyük qayıdışı təmin etməkdir. Bunun üçün isə əvvəlcə ərazi minalardan təmizlənməlidir. Yəni mütləq - elə, ya belə minalı ərazilərin xəritəsini əldə etməliyik.



*Əlbəttə, kifayət qədər imkanımız var. Sadəcə, onlardan ən idealını seçmək lazımdır. Odur ki, "Şərq" olaraq minalı ərazilərin xəritəsinin taleyi haqqında jurnalist, politoloq Anar Həsənovla müzakirə apardıq:*

**- Bakıda saxlanılan terrorçularla işğaldan azad edilən ərazilərin mina xəritələrinin dəyişilməsi barədə nə düşünürsünüz?**

- Aralarında muzdlu döyüşçülər də olan həmin hərbi əsirlərin cinayətləri artıq təsdiqlənib. Onlar böyük vəhşiliklər törədiblər. Fikrimcə, xəritə qarşılığında terrorçuların geri qaytarılması doğru olmaz. Həmin döyüşçülər törətdikləri əməllərə görə layiqli cəzalarını almalı və axıradək məhbəslərdə qalmalıdırlar.

**- Elə isə xəritələrin alınması üçün nə edilməlidir?**

- Ən güclü təsir vasitəsi Azərbaycan ordusudur. Silahlı qüvvələrimiz, "Dəmir yumruğumuz" düşməni tələblərimizin, o cümlədən üçtərəfli razılaşmanın şərtlərini yerinə yetirməyə məcbur etməyə qadirdir.

**- Proseslərin bundan sonrakı inkişafını necə görürsünüz?**

- Biz səbrsiz davranmırıq. Lakin ard-arda törədilən təxribatlar Qarabağdakı erməni hərbi birləşmələrini zərərsizləşdirmək üçün əlimizə ciddi "kozır" verir. Azərbaycan diplomatiyasının atdığı addımlar, o cümlədən Prezident İlham Əliyevlə rusiyalı həmkarı Vladimir Putin arasındakı münasibətlər üçtərəfli razılaşmanın icrasını sürətləndirə bilər.

**Kənan**

**Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı ilə bir qrup jurnalist Ağdamda Qızıl Kəngərli kəndində, Xaçınçay su anbarı və ondan ayrılan beton kanalın ətrafının minalardan təmizlənməsi prosesi ilə tanış olur.**



# Ağdamda Xaçınçay su anbarının ətrafı minalardan təmizlənir

## Bir qrup jurnalist proseslə yaxından tanış olub

APA-nın Ağdama ezam olunmuş əməkdaşının məlumatına görə, FHN-in Xüsusi Riskli Xilasetmə Xidmətinin minatəmizləmə qrupunun komandiri, baş leytenant Süleyman Heydərov bildirib ki, digər dövlət qurumları ilə yanaşı, FHN-in qüvvə və vasitələri də işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə işlərinə cəlb edilib. Tapşırıqların icrası məqsədilə Xidmətin istehkam və pirotexnik bölmələrinin şəxsi heyətindən ibarət minatəmizləmə qrupları formalaşdırılıb.

Həmin qruplar Mülki Müdafiə Qoşunlarının tibbi təxliyə qrupları ilə birgə bölgəyə ezam ediliblər. Minatəmizləmə qrupları Türkiyədə müvafiq kurslar keçib və beynəlxalq sertifikatlarla təmin ediblər.

S. Heydərov deyib ki, ilkin tapşırığa əsasən, Ağdamda Xaçınçay su anbarının ətraf ərazisi və anbardan ayrılan beton suvarma kanalının sağ-sol sahili təmizlənməlidir: "Qruplar hazırda bu təmizlənmə işlərini həyata keçirir. Tapşırıqların icrası dövründə ərazidə minalarla yanaşı, mina qədər təhlükəli gücə malik partlamamış hərbi sursatlar tapılıb və müvafiq tədbirlər görülüb. Eyni zamanda aviabombalar vasitəsilə atılan bombacıqlara da rast gəlinib. Bunlar tennis topları boydadır və ərazidə olanların diqqətini cəlb edə bilər.

Buna görə də hər kəsə çağırış edirəm ki, belə sursatlarla qarşılaşdıqda FHN-in 112 zəng mərkəzinə məlumat versinlər".

# "Minsk qrupunu regiona gətirmək cəhdləri əbəsdir"



## Qulu Məhərrəmli: "Sərhəd bölgəsində, kimsənin ərazisinə girmədən düşmənin atəş nöqtələrini susdurmaq lazımdır"

**Ermənistan təxribatlarına ara vermir. Bu dəfə düşmən Naxçıvan istiqamətində atəşkəsi pozub. Qarşı tərəf cavab atəşi ilə susdurulub.**

Maraqlı olan Ermənistanın bu cəsarəti haradan, kimdən almasıdır? Heç bir resursu, potensialı olmayan tərəf niyə belə addım atsın ki? "Şərq" olaraq proseslər və baş verənlərin gələcək perspektivləri barədə BDU-nun Jurnalistika fakültəsinin professoru, siyasi şərhçi Qulu Məhərrəmli ilə söhbətləşdik:

**- Ard-arda baş verən provokasiyalar nə ilə bağlıdır?**

- Bunun müxtəlif səbəbləri ola bilər. Birincisi, ola bilsin, təxribatlar daxili ictimai rəyin formalaşdırılmasına hesablanıb. Belə ki, Paşinyan bu cür addımlarla guya ordunun hələ də qüvvədə olduğunu, Azərbaycan üçün təhlükə yarada biləcəyini göstərmək istəyir. İkinci ehtimal diqqəti daxili xaotik vəziyyətdən yayındırmaqdır. Başqa variantlar da var.

**- Nə kimi?**

- Analoji hadisələr vasitəsilə sülhməramlıların rolunu şişirtmək də istisna deyil. Yəni guya rus hərbçiləri olmasa, vəziyyət çox gərginləşər. Hər halda bölgədə üçüncü tərəf qaldığı müddətcə bizə yeni problemlər yarana bilər. ATƏT-in Minsk qrupunu regiona gətirmək cəhdləri isə əbəsdir. Mövqeyimiz ortadadır. Prezident dəfələrlə deyib ki, münaqişə həll olunub, "Dağlıq Qarabağ" daha yoxdur.

**- Növbəti anti-terror əməliyyatı və ya yeni müharibənin başlanması barədə proqnozlarınız necədir?**

- Bu, real görünür. Sərhəd bölgəsində, kimsənin ərazisinə girmədən düşmənin atəş nöqtələrini susdurmaq lazımdır. Və kimsə bu zaman bizə "Gözün üstündə qaşın var" deyə bilməz. Çünki söhbət sərhəd bölgələrimizin təhlükəsizliyindən gedir.

**- Bəs bu zaman Moskvanın mövqeyi necə olacaq?**

- Azərbaycan diplomatiyası son illərdə bəzi uğursuz epizodlara baxmayaraq, Rusiya ilə normal münasibətlər qurub. Bir sıra məqamlarda Moskva ilə maraqlarımız üst-üstə düşür. Məsələn, ermənilərin "ərköyünlüyündə". Odur ki, fikrimcə, şimal qonşumuz bitərəfliyini qoruyacaq.

**Kənan Novruzov**

## Qoşulmama Hərəkatı Azərbaycana ciddi dəstək göstərib

"Azərbaycana qarşı qərəzli qətnamələrin qəbul olunmasına imkan verilmədi"



**Azərbaycanın Qarabağ müharibəsində qazandığı zəfər, şübhəsiz ki, asan başa gəlmədi. Bu qələbədə hərbçilərimiz qədər, diplomatik əlaqələrimizin də rolu oldu.** Xüsusilə 2019-cu ildən sədrlik etdiyimiz Qoşulmama Hərəkatının dəstəyini aydın hiss etdik. Sözügedən beynəlxalq təsisatın ayrı-ayrı vaxtlarda verdiyi bəyanatlar bunu təsdiqləyir.

**Millət vəkili Cavid Osmanov Qoşulmama Hərəkatının zəfərimizdəki rolu barədə "Şərq"ə danışıb:**

"Həmin qurum hələ müharibədən əvvəl Azərbaycanın ərazi bütövlüyünü tanımış və Ermənistanın torpaqlarımızı işğal etdiyini öz sənədlərində göstərmişdi. Müharibə dövründə BMT Təhlükəsizlik Şurasının bəzi üzv dövlətləri Azərbaycana qarşı qərəzli qətnamələr qəbul etmək istədilər.

Halbuki, həmin sənədlər BMT-nin əvvəlki qətnamələrinə zidd idi.

Məhz Qoşulmama Hərəkatının üzvləri qətnamələrin qəbul olmasına imkan vermədilər. Bu çox ciddi dəstək oldu. Belə ki, əks halda düşmənlər bizə qarşı ciddi təsir imkanı əldə etmiş olardılar.

Onu da deyim ki, sözügedən hadisələrin Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dönəminə düşməsi həm də prezidentimizin diplomatik məharətindən xəbər verir".

**Kənan**

# Artıq mənim də COVİD pasportum olacaq



## "Şərq"in əməkdaşı peyvənd olunduğu poliklinikadan reportaj hazırlayıb

### *Daha doya-doya, məhdudiyyətsiz, istədiyim kimi yaşaya biləcəm*



Xeyli müddətdir ki, vaksinasiya barədə düşünürdüm. Az qala, hər gün öz-özümə sual verirdim: peyvənd olum, ya yox? Cəmiyyətdə dolaşan müxtəlif fikirlər, birmənalı olmayan iddialar çoxları kimi mənim də başımı qarışdırırdı. Lakin tanışlardan birinin uzun müddət əvvəl təbəssümlə dediyi "Həyatı təəccübləndirmək lazımdır" sözlərini xatırladıqca qəti qərar verdim və yaxınlıqdakı poliklinikanın yolunu tutdum...

...İçəridə növbəsini gözləyən 6-7 nəfər var. Onları görüb cəsarətlənirəm. Telefonumdakı elektron saata baxaram. Elə etməliyəm ki, işə bacardığım qədər tez çatım. Növbəmi gözləyənədək ətrafı müşahidə edirəm. Peyvənd olunmağa gələnin ən cavanı, yəqin ki, mənimlə yaşıd olar. Amma aralarında 55-60 yaşlı insanlar da var. Həmin gənc oğlana yaxınlaşıb soruşuram:

**- Çoxdan gözləyirsiniz?**

*Təxminən on beş dəqiqədir burda olduğunu deyir. Sonra əlinin arxası ilə alnının tərini silib özü davam edir:*

**- Vallah, gözləmək insanı lap hövsələdən çıxarır. Həyəcanlanıram.**

Bir söz deməyib, sadəcə təbəssüm etməklə kifayətlənirəm. Əslində düz deyir. Suallar verməyə çalışırdım ki, bir az aralıdakı tibb bacılarından biri onu səsləyir: "Gəlin". Oğlan mənimlə sağollaşır və gedir.

*Peyvənd olunanlardan biri dilucu gileylənə-gileylənə geri qayıdır:* **"Nə qədər vaxtım getdi e..."**. Əvvəl yaxınlaşmaq istəyirəm. Lakin sonra bu durumda mənimlə dialoqa girməyəcəyini yəqinləşdirirəm.

Tədricən içəridəki insanların sayı artır. Oturduğum yerdən qalxıb yaşlılardan birinə yer təklif edirəm. Əyləşir. Heç ağzımı açmağa imkan vermir. "Eh bala" deyir və əlavə edir: "Vallah, məcbur etməsələr bu istinin altında nə işim burada?! Oturaram evimdə. Heç bilmirəm nə iynəsidir...". Yenə münasibət bildirmirəm. Sadəcə mücərrəd cavab verərək söyləyirəm ki, inşallah, yaxşı olar.

...Nəhayət, növbəm çatır. Tibb bacılarına yaxınlaşıram. Əvvəlcə, allergiyamın olub-olmadığını soruşurlar. Ardınca nəbzimi ölçüb göstəriciləri qeyd edirlər. Sonra isə ad, soyadımı, nömrəmi yazırlar. Harada işlədiyimi soruşurlar. "Şərq" qəzetinin müxbiri olduğumu bildirirəm. Yəqin, sonuncu sual imiş. Elə bu cavabdan sonra "Buyurun, müəllim" deyərək məni peyvənd otağına yönləndirirlər. Kiçik otaq ilk baxışdan səliqəli görünür. İçəridə iki xanım tibb işçisi var. Stulda oturar-oturmaz soruşuram:

**- Hansı peyvənddir?**

*Nisbətən yaşlı həkim eynəyinin altından mənə baxır və suala sualla cavab verir.* ***"Nə fərqi var ki?".*** *"Fərqi çoxdur" deyə bilmirəm. Əvəzində sadəcə maraqlı olduğunu bildirirəm. Bu dəfə digər tibb işçisi müdaxilə edir:* **"Sinovaks"dır".**

Bildiyimə görə, bu peyvəndin digərlərindən fərqi tərkibindəki hüceyrənin canlı yox, ölü olmasıdır. Həm də "Sputnik V" çox effektli olsa, qonşu Rusiyada yoluxanların sayı kəllə-çarxa çıxmazdı. Necə deyərlər, Rusiyanın əli yağlı olsa, əvvəl öz başına çəkərdi.

Həkim əvvəlcə pambığı xüsusi məhlula (yəqin, spirtə) batırıb qoluma sürtür. Ardınca iynəni batırır. Yenə öz-özümə düşünürəm ki, daha nə oldusa oldu. Bəlkə də, el arasında gəzən iddialara uyğun olaraq çipləndim... Bundan sonra özümün də xəbərim olmadan idarə olunacam... Hətta, ola bilsin, ömrüm müəyyən qədər qısaldı (başqa versiyaya görə insanların sayını azaltmaq istəyirlər). Olsun. Təsəllim də var: biləcəm ki, həmin zamanadək doya-doya, məhdudiyyətsiz, istədiyim kimi yaşadım. Onsuz da hamı gec-tez ölür. Məsələ yaşaya bilməkdədir. Sözün əsl mənasında yaşaya bilməkdə...Nə bilim, vallah.

Əmin olduğum bir şey var: bu koronavirus bəlasını başımıza açanlar Allahla Allahlıq iddiasına düşənlərdilər...

Həkim iynənin yerinə "santavik" yapışdırıb xəbərdarlıq edir: "Baş ağrı, ürəkbulanma, qolunuzda ağırlıq hiss edə bilərsiniz.". Daha nə qaldı ki?! Həm də hər gün koronavirusla bağlı ən azı bir material hazırladığımıza görə (COVİD-19 cənabları gündə bir mutasiya olunur) nəyi necə etmək lazım olduğunu artıq bilirik. Hətta oxucular üçün onu da əlavə edə bilərəm ki, vaksindən sonra enerji içkiləri içmək olmaz.

Minnətdarlıq edib dəhlizə çıxıram. Qeydiyyat masasındakı xanımlar bir neçə günə gəlib müvafiq sənədi götürə biləcəyimi bildirirlər. Artıq mənim də COVİD pasportum olacaq. Bir sənəd insanı bu qədərmi sevindirə bilərmiş?! Görünür, hə. Azadlıqların, təbii haqların əlindən alınanda ən adi şeyə də uşaq kimi sevinə bilirmişsən...

Növbə gözləyənlər müzakirələr aparırlar.

Kimi vaksindən sonra virusa yoluxmamasına, kimi peyvəndin əks-təsirinin olmamasına, kimi də ən qısa zamanda normal həyata qayıdacağımıza ümid edir. Mütəfəkkirlərdən birinin məşhur aforizmini xatırlayıram: "Xəstəxana divarları məscidlərdən daha səmimi dualar eşidib".

...İçimdə qəribə bir ümid var. Özümü güclü hiss edirəm. Lakin metroda polis işçilərinin tibbi maskalardan istifadə etmək barədə xəbərdarlıqlarını eşidəndə anlayıram ki, viruslarla hələ bir müddət də yoldaşlıq etməli olacağıq. Vaqondaykən xəbər portallarına baxıram. Professor Adil Qeybulla vətəndaşları vaksinasiyaya çağırır...

...Nə vaxtsa, hardasa dediyi bir cümləsi ilə məni bura gətirən həmin adama zəng edib peyvənd olunduğumu demək istəyirəm. Bilirəm ki, inanmayacaq. "Sən?!" deyə heyrətlə soruşacaq. Ona elə gəlirdi ki, mən vaksin olunacaq ən axırıncı adamam. Elə özüm də belə düşünürdüm. Fikrimi dəyişib telefonu cibimə qoyuram. Bunun üçün gecikdiyimi etiraf edirəm. Eyni ilə vaksinləşməyə gecikdiyim kimi. Gərək hər şeyi vaxtında edəsən. Vaxtında yaşayasan...

**Kənan Novruzov**




# "Minsk Qrupu düşmənin "əlinə oynayır"

## Proseslər göstərir ki, Ermənistan yekun sülh müqaviləsini imzalamaqda könüllü deyil

**Prezident İlham Əliyev Xocasən qəsəbəsində şəhid ailələri və müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim edilməsi mərasimindəki çıxışı zamanı bir çox mühüm məqamlara toxunub.**

O bildirib ki, biz Ermənistanla sülh müqaviləsini imzalamağa hazırıq. Ancaq Ermənistan tərəfindən buna reaksiya yoxdur. Qeyri-rəsmi kanallarla bizə çatan məlumata görə, Ermənistan buna hazır deyil.

"Onu da bildirməliyəm ki, delimitasiya işləri ilə bağlı indi beynəlxalq təşkilatlar da müsbət reaksiya verirlər. Əgər Ermənistan bunu etmək istəmirsə, özü bilər, ancaq yaxşı fikirləşsinlər, sonra gec ola bilər. Necə ki, vaxtilə əgər öz xoşları ilə bizim torpaqlarımızdan çıxsaydılar, bu qədər rəzil duruma düşməzdilər. Bizim bu təklifimiz qalib ölkənin təklifidir, güclü tərəfin təklifidir, müzəffər xalqın təklifidir. Əgər buna Ermənistanda mənfi reaksiya varsa, bunu da özləri bilərlər. Amma yenə də deyirəm, yenə də peşman olacaqlar. Biz isə bundan sonra ancaq və ancaq irəli gedəcəyik". - deyə, dövlət başçısı əlavə edib.

**Millət vəkili, MCP sədri Razi Nurullayev "Şərq"ə açıqlamasında düşmənin hələlik buna hazır olmadığını bildirib:** "Proseslər göstərir ki, Ermənistan yekun sülh müqaviləsini imzalamaqda könüllü deyil. Çünki bizim üçün ölü quruma çevrilən Minsk qrupu düşmənin "əlinə oynayır". İrəvan isə tədricən ümidlənir. Görünür, həmsədrlər problemin mövcud reallıqlara uyğun həllində maraqlı deyillər. Azərbaycan isə qətiyyətli olmalıdır. Biz öz ərazimizdə ikinci erməni dövlətinin yaradılmasına icazə verə bilmərik".

*R.Nurullayev, həmçinin çıxış yolunu da göstərib:*

"Rəsmi Bakı bütün lazımi addımları atır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarının yaradılması olduqca təqdirəlayiqdir. Deməli, Qərbi Zəngəzur da var. Biz Qərbə, düşmənə mesaj veririk ki, Ermənistan yekun sülh müqaviləsini imzalayıb ərazi bütövlüyümüzü tanımasa, Qərbi Zəngəzur məsələsini gündəmə gətirəcəyik. Onlar bizim ərazi bütövlüyümüzü tanımırsa, biz də onlarınkını tanımayacağıq. Hərçənd ora da bizim tarixi torpaqlarımızdır. Fikrimcə, proseslər belə davam etsə, Azərbaycan növbəti mərhələdə Qərbi Zəngəzura ərazi iddiasını ortaya qoyacaq".

**Kənan Novruzov**

# Paşinyan barıt çəlləyinin üstündə oturub

**Ermənistanın Baş naziri səlahiyyətlərini icra edən Nikol Paşinyan Azərbaycanı ittiham edib. Paşinyan iddia edib ki, Azərbaycan hökumətinin mövqeyi göstərir ki, onlar regional kommunikasiyaları açmaq istəmirlər. Onun fikrincə, Bakı hələ də Ermənistanı blokadada saxlamaq niyyətindədir. Paşinyan, guya, Azərbaycanın sülh prosesini dağıtmaq istədiyini söyləyib:**



## Baş nazir Moskvadan aldığı gündəliyi ardıcıl həyata keçirməyə başlayıb

"Onların məqsədi Ermənistanın blokadasını davam etdirməkdir. Lakin biz üçtərəfli qrupda işimizi davam etdirəcəyik ki, bu blokadanı yaraq, rusiyalı və beynəlxalq tərəfdaşlarımızın köməyi ilə əlaqələrin açılmasına nail olaq". Azərbaycan Prezidenti az qala hər çıxışında Ermənistana sülh çağırışı edir, kommunikasiyaların açılmasının, nəqliyyat dəhlizlərinin işə düşməsinin önəmindən danışır, Ermənistanın yeganə çıxış yolunun regional əməkdaşlıqdan keçdiyini deyir. Rəsmi Bakı davamlı bu istiqamətdə addımlar atır, təşəbbüslər irəli sürür. Ancaq dövlət başçısının da bəyan etdiyi kimi sülhə yaxın durmayan məhz Ermənistandır. Buna baxmayaraq, Paşinyan sərsəmcəsinə Azərbaycan hökumətinin Ermənistanı blokadada saxlamaq istədiyi iddiasını səsləndirir. Bu, ilk növbədə Paşinyanın daxili auditoriyaya mesajıdır. Əslində Paşinyan kommunikasiyaları açmağa məcburdur. Çünki Zəngəzur dəhlizinin fəaliyyətə başlamasının qaçılmaz olduğunu yaxşı anlayır. Ancaq bunun daxili auditoriyada Azərbaycanın növbəti uğuru kimi qəbul edilməsini istəmir. Buna görə də kommunikasiyaların açılması təşəbbüsünü İrəvanın qaldırdığı təsəvvürünü yaratmağa çalışır. Xatırladaq ki, bir müddət öncə Nikol Paşinyan öz partiyasından olan deputatlarla görüşündə Laçın dəhlizini xatırlatmış, bu yolun açıq qalmasının Zəngəzur dəhlizindən asılı olduğuna dolayısıyla işarə etmişdi. Görünür, Paşinyanın kommunikasiyaların açılması üçün daxili auditoriyaya istiqamətlənmiş təbliğat kampaniyasına start verməsi prosesin artıq aktiv fazaya keçdiyini təsdiqləyir.

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev "Şərq"ə bildirib ki, Paşinyan Moskvadan xüsusi siyasi reseptlə qayıdıb və ona verilən siyasi gündəliyi ardıcıl həyata keçirməyə başlayıb. Professorun sözlərinə görə, Azərbaycanın ən çox maraqlı olduğu məsələ regional kommunikasiyaların açılmasıdır:** "Erməni deputatlar məsələ qaldırıblar ki, İran Zəngəzur dəhlizinin açılmasında maraqlı deyil. Hazırda İrəvan-Tehran əlaqələri yüksək səviyyədədir. Hətta iş o yerə çatıb ki, İran acından ölən ermənilərə kömək etmək məqsədi ilə öz vətəndaşlarını vaksinasiya üçün Ermənistana göndərir. İran vətəndaşları peyvənd vurdurmaq üçün günlərlə Ermənistanda qalmağa, pul xərcləməyə məcbur olurlar. Separatçı Vitali Balasanyanın nəzarəti altında Qarabağda həm yerli, həm də xarici ermənilərdən ibarət 18 minlik ordu yaradılır. İrandan "humanitar yardım" adı ilə silah-sursat göndərilir. Şübhə yox ki, bu cür təchizatın Rusiyanın xəbəri və rizası olmadan reallaşması imkansızdır".

**C.Nuriyev diqqətə çatdırıb ki, erməni mediasında bu cür xəbərlər tez-tez yayılsa da, bir saat ərzində məlumatlar silinir.** Erməni politoloq - Hora Arustamyan bildirdi ki, "İran və Rusiya Qarabağ ərazisində yenidən separatizmi qızışdırırlar". Rusiya Zəngəzur dəhlizini Azərbaycana təzyiq vasitəsi kimi əlində saxlamağa cəhd göstərir. Moskva dəhlizin açılmasında maraqlı olduğunu deyərkən səmimi deyil. Paşinyan hələ and içməmiş belə sərsəm bəyanatlar verirsə, sonrakı günlərdə də təxribata meyilli olacağı ehtimal olunur. Ancaq unutmasın ki, bir illik təxribatının və təhlükəli açıqlamalarının ardınca torpaqlarımızı işğaldan azad etdik. Əgər Paşinyan absurd iddialarına davam edərsə, Azərbaycan Ordusunun daha hansı əraziləri düşməndən azad edəcəyi məsələsi gündəmə gələ bilər. Adı "sülhməramlı", özləri isə provokator olan Rusiya hərbçiləri də bu barədə fikirləşsə yaxşı olar".

**İsmayıl Qocayev**

**"Qazın bahalaşmasının yay ayına təsadüf etməsi proqnozunu mən fevral ayında qeyd etmişdim. Hazırda yay ayıdır və qazın bahalaşması əhalinin büdcəsinə hələ ki, tam formada təsir etməyib".**



# Qazın qiymətinin bahalaşması doğru qərar ola bilməz

## Ümid edirəm ki, hökumət ilin sonuna kimi enerjinin qiymətini qaldırmayacaq

**Bu fikirləri "Şərq"ə açıqlamasında iqtisadçı-ekspert Rauf Qarayev deyib. O** qeyd edib ki, bir vaxtlar Milli Məclisdə məsələ qaldırılmışdı ki, qazın baha olması əhalinin yaşayış rifahına mənfi təsir edir: "Həmçinin qeyd olunmuşdu ki, qiymətin bahalığı kənd əhalisini məcbur edir ki, meşələrdən odun gətirsinlər. Bu isə bilirsiniz ki, meşə təsərrüfatına çox ciddi ziyan vurur. Məhz buna əsasən limit tətbiq olundu ki, əhali limit çərçivəsində hərəkət etsin. Düzdür, müəyyən kateqoriya əhalinin gəlirləri ötən ilə nisbətən artıb, amma ümumi götürsək, əhali üçün qış ayları ağır keçəcək. Bu səbəbdən yuxarıda qeyd etdiyim kimi, əhali artıq indidən öz tələbatını ödəmək üçün odun axtarışına çıxıb. Rayonlarda insanlar var ki, qapı-qapı gəzib odun axtarırlar. Bundan əlavə, qeyd edim ki, qışda elektrik enerjisinə tələbat arta bilər. Çünki qazın yükü enerji üzərinə keçəcək. Bu da müəyyən vaxtlarda xətlərin tez sıradan çıxmasına gətirib çıxaracaq. Bildiyiniz kimi, bunun da iqtisadi ağırlıq yükü olması halı var. Hazırkı dönəmdə virus problemi səbəbindən bir çox işlər məsafədən idarə olunur. Yüklənmə səbəbindən rayonlarda işıqlar tez-tez sönə və ya sıradan çıxa bilər. Bu da çox ciddi fəsadlara gətirib çıxara bilər. Ümid edirəm ki, hökumət ilin sonuna kimi enerjinin qiymətini qaldırmayacaq. Çünki qiymətlərin qalxması əhalinin iqtisadi durumunu pisləşdirməklə yanaşı, əhalinin ciddi narazılığına gətirib çıxara bilər. Bu isə yəqin ki, qiymət siyasəti ilə məşğul olanları bir daha düşünməyə vadar edəcək".

> **"Müharibədən və pandemiyadan çıxmış əhaliyə möhlət verilməli idi ki, özünə gəlsin"**

**Ekspertin fikrincə, qiymət siyasətini tənzimləyənlər ən azı bu addımın atılması prinsipindən uzaq olmalı idilər:** "Yeni müharibədən və pandemiyadan çıxmış əhaliyə möhlət verilməli idi ki, özünə gəlsin. Bundan sonra, hissə-hissə bu məsələyə baxılmalı idi. Əvvəlcə həmin vaxta olan durum tam təhlil edilməli və daha sonra bu kimi müvafiq addımlar atılmalı idi".

**Aynurə Pənahqızı**

# "Sülh çağırışlarına atəş səsləri ilə cavab verilir"

## General Yücel Karaüz: “Həssas dönəmdə xətaya yol vermək olmaz”

"Azərbaycan-Ermənistan sərhədində yaşanan olaylar, erməni tərəfinin təxribatları, Qarabağdakı separatçıların terror cəhdləri Prezident İlham Əliyevin "Azərbaycan sülh çağırışı edir, amma Ermənistan bunu istəmir" ifadəsinin təsdiqi və sübutudur".

**Bu sözləri ”Şərq”ə açıqlamasında Türkiyənin Azərbaycandakı keçmiş hərbi attaşesi, təqaüddə olan general-mayor Yücel Karaüz deyib. General xatırladıb ki, Ermənistan 10 noyabr 2020-ci ildə təslim anlaşmasına imza ataraq ölkəni və ordunu tamamilə məhv olmaqdan qurtarıb. Təslim sazişinin baş memarı və təminatçısı isə Rusiyadır:** ”Bəyanatda birbaşa imzası olmayan Türkiyə də üçtərəfli sazişi dəstəkləyən əsas ölkədən biridir. Müqavilə imzalanandan bu yana həm Azərbaycan, həm də Türkiyə prosesin sülhə doğru irəliləməsi üçün diplomatik vasitələr və regional əməkdaşlıq təklifləri daxil olmaqla, bölgənin iqtisadi inkişafı, nəqliyyat şəbəkəsinin formalaşması müstəvisində dəfələrlə çağırış edib. İki qardaş ölkə Ermənistana münasibətdə xoş niyyətlərini ortaya qoyublar. Buna rəğmən, Ermənistan Azərbaycan və Türkiyənin sülh çağırışlarına mərmi və təxribatla cavab verib. Ermənistan dövlətinin, ya da Qarabağdakı erməni separatçılarının Moskvadan, rus sülhməramlılarından xəbərsiz hansısa təxribata əl atması qeyri-mümkündür. Əlbəttə, istisna edilmir ki, indiki məqamda sərhəddə və Qarabağda təxribata cəhd edənlər ”Qarabağ klanı”nın ordudakı dəstəkçiləri də ola bilər. Çünki məhz bu qruplaşma problemin birdəfəlik çözülməsini istəmir. Məsələ ondadır ki, ”Qarabağ klanı” Kremlə tabedir. Əgər birinci və ikinci təxribatdan sonra Rusiya həmin güclərə qulaqburması versəydi, yenidən buna cəhd etməzdilər. Axı Rusiya Prezidenti Vladimir Putin şəxsən özü ifadə edib ki, Qarabağ Azərbaycanın ərazisidir”.






**“Rus sülhməramlıları iş görmək istəyirsə, Qarabağdakı ermənilərə ev, xəstəxana tikməkdən vaz keçərək, ilk növbədə separatçı, terrorçu gücləri silahsızlaşdırsınlar"**

Y.Karaüz vurğulayıb ki, hazırda Ermənistan tərəfi birtərəfli olaraq 10 noyabr üçtərəfli sazişinin bəndlərinə əməl etməkdən boyun qaçırır: ”İrəvan çalışır ki, proses daha qarışıq hal alsın və olaylara başqa dövlətlər, xüsusən Qərb ölkələri müdaxilə etsin. Çünki belə olarsa, həlli mümkün olmayan və xeyli uzanan proses formalaşacaq. Fransanın, Avropa Birliyi ölkələrinin, hətta Amerikanın son günlərdə fəallaşması bununla bağlıdır. Rusiyadakı müəyyən dairələr də Qarabağ məsələsinin 10 il, 20 il uzanmasında maraqlı ola bilər. Rus sülhməramlıları iş görmək istəyirsə, Qarabağdakı ermənilərə ev, xəstəxana tikməkdən vaz keçərək, ilk növbədə separatçı, terrorçu gücləri silahsızlaşdırsınlar. Ən qısa müddətdə Azərbaycan torpaqlarındakı bütün erməni silahlıları oradan çıxmalıdır. Rəsmi Bakı bugünədək apardığı diplomatik fəaliyyəti, düşünülmüş uğurlu siyasəti davam etdirməli, sərhəddəki təhrikedici hərəkətlərə aldanmamalıdır. Həssas dönəmdə xətaya yol vermək olmaz. Amma Azərbaycan öz torpaqlarındakı erməni quldurlarına misliylə cavab verməə haqqına sahibdir”.

**General bildirib ki, əgər Rusiya sülhməramlıları bölgədə atəşkəsi təmin edə bilmirsə, etmək istəmirsə, ya qısa müddətdə Qarabağı tərk etməli, ya da Moskva üzərinə götürdüyü öhdəliyin fərqinə varmalıdır:** ”Onsuz da Rusiya rəsmi Bakının Şuşa dəvətini geri çevirməklə, Azərbaycan torpaqlarına səfər etməkdə tərəddüd göstərməklə əsl niyyətini ortaya qoydu. Yaxşı olar ki, Kreml ikiüzlü siyasətdən əl çəksin. Heç kim Azərbaycanın səbrini daşırmağa cəhd etməsin. Üçtərəfli saziş imzalanarkən bəyan etmişdik ki, çox uzun və zəhmətli bir dönəmə qədəm qoyuruq. Döyüş meydanında müharibəni qazandıq, amma diplomatik savaşımız gərgin şəkildə davam edir. Hazırda baş verənlər ümumi prosesin nə qədər mürəkkəb olduğunun isbatıdır”.

**İsmayıl Qocayev**

# Strateji hədəflərimizdən biri açıqlandı

## Biz Zəngəzura-dədə-baba torpaqlarımıza qayıtmalıyıq

Prezident İlham Əliyev ötən günlərdə şəhid ailələri və qazilərlə görüşündə bir sıra mühüm məqamlara toxundu. Dövlət başçısı ilk növbədə münaqişənin öz həllini tapması və "Dağlıq Qarabağ" anlayışının mövcud olmaması ilə bağlı qəti mövqeyini bir daha xatırlatdı. Ölkə başçısı əvvəllər də öz çıxışlarında və müsahibələrində dəfələrlə bildirmişdi ki, artıq Azərbaycan üçün Qarabağ problemi yoxdur və bu problem tarixə qovuşub.

Prezidentin yenidən bu məsələyə toxunması ermənilərin son günlər yenidən gündəmə gətirdikləri ”status”la bağlı xülyalarına həmişəlik son qoymaq üçün idi. Bu ifadələr eyni zamanda ”status” məsələsini yenidən müzakirə predmetinə çevirmək istəyən ATƏT-in Minsk qrupunun həmsədrlərinə verilən ismarıc kimi də dəyərləndirilə bilər. O baxımdan həmsədrlər və revanşist Ermənistanın digər havadarları birmənalı dərk etməlidirlər ki, bundan sonra heç bir ”status”dan söhbət belə gedə bilməz. Çünki rəsmi Bakı üçün bu məsələ tamamilə bitmiş sayılır. Bu mənada, 10 noyabr razılaşmasının altında imzası olan Rusiyanın ABŞ və Fransa ilə eyni mövqedən çıxış edərək, Qarabağda münaqişənin bitmədiyini göstərməyə çalışması tamamilə absurddur.

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov ”Şərq”ə açıqlamasında bəyan edib ki, Rusiya postmünaqişə dövründə sülh və təhlükəsizliyin əldə edilməsini təmin etmək əvəzinə, əksinə, buna mane olur.** Bu məqsədlə də Qarabağdakı separatçılardan, Ermənistan silahlı qüvvələrinin qalıqlarından təxribatlar törətmək, atəşkəsi pozmaq üçün istifadə edir: ”Fransa Prezidenti Emmanuel Makron bu günlərdə İrəvana səfər etməyə hazırlaşır. Əlbəttə, onun gəlişindən müsbət bir şey gözləməyə dəymaz. Çünki Makronun məqsədi regionda sülh yaratmaq yox, əksinə, Ermənistanı revanşizmə təhrik etməkdir. Lakin böyük güclərin hansı planları cızmasından asılı olmayaraq, Azərbaycanın işğaldan azad edilmiş bütün ərazilərində, o cümlədən Xankəndidə suverenliyimiz tezliklə bərpa olunacaq. Başa düşürük, Şuşa bəyannaməsi çoxlarının yuxusuna haram qatıb. Lakin Qarabağda hansısa süni gərginliklər yaratmaqla nəyəsə nail olmaq mümkünsüzdür. Rusiya sülhməramlılarının şərait yaratması və göz yumması ilə erməni separatçılarının yenidən fəallaşması yalnız Moskvanın özünə zərər verəcək”.



**Partiya rəhbəri vurğulayıb ki, ölkə başçısı İlham Əliyevin çıxışında Zəngəzur, Göyçə və İrəvana qayıdış məsələsinə toxunması və 10 noyabr bəyanatına istinad etməsi olduqca mühümdür:** ”Prezident bildirdi ki, Bəyanata əsasən, bütün qaçqınlar öz doğma torpaqlarına qayıtmalıdırlar. Bu isə o deməkdir ki, təkcə Qarabağdan olan məcburi köçkünlər yox, Qərbi Azərbaycandan olan qaçqın soydaşlarımız da öz dogma yurd yerlərinə - Zəngəzura, Göyçə mahalına, İrəvana qayıtmalıdırlar və qayıdacaqlar. Beləliklə, dövlət başçısı tarixi torpaqlarımıza qayıtmaq hədəfimizi artıq sadəcə publik çıxış kimi deyil, rəsmi sənədə istinadən açıqlayır, gündəmə gətirir və bu məsələyə legitimlik qazandırır. Bu mənada Prezidentin ”Əgər Şərqi Zəngəzur varsa, deməli, Qərbi Zəngəzur da var. Qərbi Zəngəzur bizim dədə-baba torpağımızdır” - deməsi qətiyyən söz xatirinə deyilmiş ifadələr deyil. Bu, həm ismarıc, həm də strateji hədəflərimizdən biridir. Bununla Qarabağ münaqişəsini yenidən dirçəltmək istəyən güclərə xəbərdarlıq edildi”.

**İsmayıl Qocayev**

## Arif Babayev Türkiyədə həkim nəzarətindədir



**Oğlu Yaşar Babayev Xalq artisti Arif Babayevin səhhətindən bəhs edib.**

Y.Babayev MTV-yə açıqlamasında xanəndənin müalicəsinin yaxşı getdiyini deyib. O bildirib ki, atası hazırda Türkiyədə həkim nəzarətindədir:

"Atam yavaş-yavaş sağalır. İki həftəyə Azərbaycana qayıdacaq. İnsult keçirmişdi. Sevinirik ki, müalicənin nəticəsi yaxşıdır".

*Qeyd edək ki, A.Babayev ötən il insult keçirib.*

## Daha 169 yeni yoluxma faktı qeydə alınıb

### 92 nəfər müalicə olunaraq sağalıb, ölən yoxdur




**Azərbaycanda koronavirus infeksiyasına daha 169 yeni yoluxma faktı qeydə alınıb, 92 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, son sutkada ölüm faktı qeydə alınmayıb.

İndiyədək ölkədə ümumilikdə 337 970 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 331 112 nəfər müalicə olunaraq sağalıb, 4 990 nəfər vəfat edib, aktiv xəstə sayı 1868 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 8628, ötən müddət ərzində isə ümumilikdə 3 894 683 test aparılıb.

**Kənan**

## Rusiyada radardan itmiş təyyarə tapıldı

**Rusiyanın Tomsk vilayətində radardan itən "An-28" tipli təyyarə tapılıb və ilkin məlumata görə göyərtədəki adamlar sağdır.**

"Report" "RİA Novosti"yə istinadən xəbər verir ki, məlumatı Rusiya Fövqəladə Hallar Nazirliyi yayıb.

Məlumata görə, təyyarənin göyərtsində 4-ü uşaq, 3-ü ekipak üzvü olmaqla 17 nəfər var.




# Rəqabət yarandı, qiymətlər ucuzlaşdı

### 5-6 ildir taksi xidmətində qiymətlər bahalaşmayıb

Azərbaycanda taksi xidmətinin qiyməti bir kilometr üçün 0,44 dollar təşkil edir. Bu barədə "Trend" "Numbeo" məlumatlar bazasının reytinqinə istinadən məlumat yayıb. Məlumatda qeyd olunur ki, taksi xidmətlərinin ən bahalı olduğu ölkə İsveçrədir. Burada bir kilometr məsafə üçün qiymət 4,15 dollar təşkil edir. Yaponiyada sərnişinlər bir kilometr üçün 3,63 dollar, Salvadorda 3 dollar ödəyirlər.

MDB məkanında isə Özbəkistanda taksi xidmətinin qiyməti bir kilometr üçün 0,2 dollar, Rusiyada 0,23, Qazaxıstanda 0,35 dollara bərabərdir. Müqayisə edildikdə, Azərbaycanda taksi xidmətinin dünyanın bir sıra ölkələrinə nisbətən ucuz olması, MDB məkanında isə əksinə, nisbətən baha olması nəzərə çarpır. Bununla belə hazırda taksi xidməti ən sərfəlidir. Pandemiya dövründə isə taksilərin hörməti birə-on artıb. Şənbə-bazar günləri, eləcə də bayram günlərində ictimai nəqliyyatın önünün kəsilməsi, axşam saat 20:00-dan sonra ictimai nəqliyyatın "axsaq keçi"yə dönüb tədricən tamam sıradan çıxması taksilərə tələbatı üst səviyyəyə çıxarıb. Hətta işə gedənlər, işdən qayıdanlar çox zaman evlərinə rahat, gecikmədən dönsünlər deyə, ictimai nəqliyyat əvəzinə ucuz taksi xidmətinə müraciət edirlər. Metrostansiyaların çıxışlarında 1 manatlıq taksilər sıraya düzülür. Adambaşı 1 manatdan yaxın məsafələrə sərnişin daşıyırlar. Sərnişin də razı qalır, sürücü də qazanc əldə edir. İş günləri və bəzi vaxtlarda sifariş edilən taksilərin tıxac, "ças-pik" səbəbindən gecikmələrini nəzərə almasaq, hazırda ən sərfəli nəqliyyat növü taksilərdir. Ucuz və rahat. Taksi sürücülərinin bunca tələbat müqabilində qiymətləri qaldırmaması maraq doğurur. Nə əcəb? Çünki bizdə bu işlər adətən baş-ayaq olur. Tələbat artdıqca qiymətlər enmək əvəzinə, daha da qalxır. Taksi xidmətində qiymət sabotajına gedilməməsinin səbəbi nədir?

> Azərbaycanda bütün hallarda taksi hazırda ən sərfəli və ucuz nəqliyyatdır

**İqtisadçı Natiq Cəfərli "Şərq"ə açıqlamasında qey etdi ki, burada bir vacib səbəb var:**

- Ən başlıca səbəb ciddi rəqabət mühitinin olmasıdır. Biz iqtisadçılar hər zaman dönə-dönə bildiririk ki, harada sağlam rəqabət varsa, orada inkişaf və qiymət tənzimləməsi olacaq. İqtisadi inkişafın təməli də, qiymət monopoliyasının qarşısının alınmasının yeganə şərti də sağlam rəqabətdir. Bu gün paytaxtda bir neçə taksi şirkəti fəaliyyət göstərir. Xarici şirkətlər də var *(UBER, Yandeks kimi)*, yerli şirkətlər də. Ucuz taksi xidmətləri fəaliyyətdədir. Vətəndaş sifariş edir, sərfəli qiymətdirsə, razılaşır, sərfəli deyilsə, başqa şirkətə zəng edir. Ona görə də taksi şirkətləri müştəriləri itirmək istəmir. Ucuz xidmət haqqı təklif etməyə çalışırlar. Ekonom, comfort, lyuks xidmət növləri var. Ucuz olanı, sadə vətəndaşın büdcəsinə uyğun gələni, nisbətən orta qiymətə xidmətlər də var, komfort gediş üçün nisbətən yüksək qiymətlər də. Amma bütün hallarda taksi hazırda ən sərfəli və ucuz nəqliyyatdır. Vətəndaş saatlarla ictimai nəqliyyatda vaxt itirmək, istidə basabas avtobuslarda yorğun halda mənzil başına yetişmək əvəzinə azacıq artıq xərc çəkib taksi ilə rahat hərəkət etməyi seçir. Seçim imkanı da, bayaq dediyim kimi boldur. Hansı taksi xidməti vətəndaşa sərf edirsə, onu seçir. Ona görə də qiymətlər ucuzdur, münasibdir. Son 5-6 ildə taksi xidmətinin qiyməti bahalaşmayıb *(şeytanın qulağı kar olsun - M.R.)*. Hətta 2014-cü ilin məlum devalvasiyası zamanı da demək olar hər sahədə qiymət artımı oldu, təkcə taksidən başqa. Xatırlayırsınız, vaxt vardı, taksilər hava limanı 20 manatdan aşağı aparmırdı. Amma şirkətlərin saytı artdı, rəqabət yarandı və qiymətlər ucuzlaşdı. Sağlam rəqabət olan yerdə bazarın görünməz əli qiymətləri tənzimləyir.

**Məlahət Rzayeva**



# Gənc "patı"nın təsirindən komaya düşüb

### Narkotik maddələrin ölkəyə daxil olmasına ciddi nəzarət olmalıdır

**Bakıda, 9-cu mikrorayon ərazisində narkotik vasitənin aludəçisi olan gənc komaya düşüb. Bu barədə ərazidə işləyən sakinlər məlumat verib.**

Məlumata görə, yeniyetmə "patı" adlandırılan metomfetamin istifadə edib. Daha sonra huşu gedib və ərazidə yaşayan sakinlər tərəfindən küçədə halsız vəziyyətdə tapılıb.

"Əvvəlcə elə bildik qıcolma tutub, amma yaxınlaşanda gördük ki, bədənində yara izləri var. Ara-sıra çabalayırdı. Ayıltmağa çalışsaq da, bacarmadıq. Sonra polisə zəng etdik. Binəqədi rayon 7-ci Polis Bölməsinin əməkdaşları dərhal gəldilər. Gənci ayıldıb xəstəxanaya apardılar və dedilər ki, "patı"nın təsirindən komaya düşüb".

Son zamanlar ölkəmizdə narkomaniyanın gənclər arasında geniş yayıldığının şahidi oluruq. Xüsusilə "patı" adlanan narkotik vasitələrin kütləvi satışı həyata keçirilir. Bu baxımdan məsələnin ciddi nəzarətə götürülməsi vacibdir.

**Tibb elmləri doktoru, professor Adil Qeybullanın "Şərq"ə açıqlamasına görə, metamfetaminlər çox sintetik və asılılıq yaradan narkotik vasitələrdir:** "İnsanlar bu maddəni bir dəfə qəbul etdikdə belə asılı vəziyyətə düşürlər. Nəticədə "patı" istifadə edən şəxs daim həmin maddədən istifadə etmək istəyir. Ona görə də həmin maddəni kimlərin gətirdiyinə dair çox ciddi nəzarət olmalıdır. Məlumdur ki, "patı" ölkəmizə asan yolla daxil olur və satışı həyata keçirilir. Nəticədə gənclərimizin sağlamlığı ciddi təhdidə məruz qalır".



**Yeganə Bayramova**

# Əfqanıstandakı gərginlik qonşu ölkələrə keçə bilər



*"Taliban" istənilən vaxt Rusiya və postsovet məkanı üçün təhlükə yarada bilər*

Əfqanıstanda vəziyyət getdikcə daha da pisləşir. Bunu Rusiyanın Xarici işlər naziri Sergey Lavrov deyib. XİN başçısı qeyd edib ki, təəssüf ki, son günlər vəziyyətin sürətlə deqradasiyası müşahidə edilir.

Lavrov baş verənləri ABŞ qoşunlarının Əfqanıstandan çıxarılması ilə əlaqələndirib. Onun fikrincə, "qeyri-sabitliyin qonşu dövlətlərə keçmə" riski var. Bundan əlavə, diplomat qeyd edib ki, bu, terror təhlükəsini və narkotiklərin həddən artıq genişlənmiş qanunsuz dövriyyəsini bir az da gücləndirir: "Moskva təkcə münaqişə tərəfləri arasında fəal dialoq deyil, həmçinin danışıqların formatlarının genişləndirilməsinə də tərəfdardır". Məlumat üçün deyək ki, Əfqanıstanda hökumət qüvvələri ilə kənd rayonlarının əksəriyyətini ələ keçirərək iri şəhərlərə hücuma başlamış talıblər arasında qarşıdurma davam edir. Ölkədə qeyri-sabitlik ABŞ administrasiyasının sentyabrın 11-nə qədər ölkədən qoşunların çıxarılacağı barədə vədləri fonunda artır. 2020-ci ildə Vaşinqton və "Taliban" nümayəndələri Dohada son 18 ildən artıq bir müddət ərzində ilk sülh sazişini imzalayıblar. Həmin sənəd əcnəbi hərbi kontingentin ölkədən çıxarılmasını və əsirlərin mübadiləsindən sonra Əfqanıstan daxilindəki qüvvələr arasında dialoqun başlanmasını nəzərdə tutur.

**Politoloq Qabil Hüseynli bildirib ki, Amerika Əfqanıstanda "Taliban"a qarşı mübarizə apararkən Rusiyanın talibanlara maliyyə yardımı etdiyini iddia edirdi. Ekspertin sözlərinə görə, bu barədə söz-söhbət dünya mediasında özünə geniş yer tapmışdı:** "Hətta Kremli "Taliban"ı dəstəkləməkdə günahlandırdılar. "Taliban"la rəsmi Moskva arasında sövdələşmə olub. Amma "Taliban" sağ-solunu tanımayan radikal təşkilatdır. Bu təşkilat istənilən vaxt Rusiya və postsovet məkanı üçün gərginlik, təhlükə yarada bilər. Amma qruplaşmanın hazırda əldə etdiyi ərazilər heç də bütün ölkəyə nəzarət etməsi anlamına gəlmir. Reallıqda "Taliban"ın indiyə qədər nəzarət etdiyi ərazilər ölkənin ümumi ərazilərinin üçdə birini belə təşkil etmir. Üstəlik, ABŞ qüvvələrinin hamısı olmasa da, müəyyən hissəsi səfirliyi qorumaq adı ilə Əfqanıstanda saxlanılır. İngiltərə isə bütövlükdə hərbi kontingentini orada saxlamaq niyyətindədir". Analitikə görə, "Taliban"ın təşkilat kimi tamamilə sıradan çıxarılması lazımdır: "Çünki "Taliban" Əfqanıstanı parçalamaq həddinə çatdıran, çoxlu sayda qırğınlar törədən bir dəstədir. Türkiyənin bütün istiqamətlərdə ciddi danışıqlar apardığı qənaətindəyəm. Amma Rusiya və KTMT-nin proseslərə birbaşa qatılacağını düşünmürəm. Tacikistana dəstək verəcəklər. Amma ümumi vəziyyət mürəkkəbdir və mürəkkəbləşməkdə də davam edir".

**İsmayıl**

## Təcrübələrindən yararlanacağıq

Belarusla əlaqələrimiz təəccüblü deyil



**"Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Belarus Respublikasının Müdafiə Nazirliyi arasında ikitərəfli əməkdaşlığın həyata keçirilməsi zamanı məxfi informasiyanın qarşılıqlı ötürülməsinə dair" müqavilə təsdiqlənib.**

Bununla bağlı Prezident İlham Əliyev Azərbaycan Respublikasının Qanununu imzalayıb. Müqavilə 2021-ci il mayın 18-də Bakı şəhərində imzalanıb.

**Hərbi-siyasi ekspert Həşim Səhrablı "Şərq"ə açıqlamasında sözügedən addımı müsbət qiymətləndirib:**

"Düzdür, Azərbaycanın Belarusla münasibətləri birmənalı qarşılanmır və bu, başa düşüləndir. Amma nəzərə almaq lazımdır ki, Azərbaycan balanslaşdırılmış xarici siyasət yeridir. Bu mənada əlaqələrimiz təəccüblü deyil. Həm də Belarusun ağır sənaye sahəsində uğurları kifayət qədərdir. Biz onun təcrübəsindən yararlana bilərik".

**H.Səhrablı, həmçinin əlaqələrin siyasi əhəmiyyətindən danışıb:** "Belarus Ermənistanın potensial müttəfiqlərindən biridir. Hər halda hər iki dövlət KTMT üzvüdür. Bu mənada biz Ermənistanı təcrid etməyə, məhz potensial müttəfiqlərindən ayırmağa çalışırıq. Fikrimcə, Belarusla əlaqələrimiz arzuolunan nəticələr vəd edir".

**Kənan**



## "Taliban" hər zaman təhlükə olaraq qalır

Əfqanıstanda sülhün bərqərar olması üçün dördtərəfli platforma yaradılması çox vacibdir

**Əfqanıstanda sülh prosesini dəstəkləmək üçün yeni dördtərəfli platforma yaradılır. Platformanın iştirakçıları Özbəkistan, ABŞ, Əfqanıstan və Pakistandır.**

Özbəkistan Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Yusup Kabulcanov bildirib ki, yeni format Əfqanıstanda sülh prosesini və münaqişədən sonrakı nizamlanmaya dəstək olmaq üçün yaradılır. Bəs bunun effekti nə dərəcədə olacaq?

Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən Rusif Məmmədsoy bildirib ki, ABŞ hərbçiləri Əfqanıstanı tərk etdikcə, "Taliban" şimalda daha da möhkəmlənib. Politoloq qeyd edib ki, hazırda Tacikistanla sərhəddə də "Taliban" nəzarət edir: "Düzdür, "Taliban" bəyan edib ki, Mərkəzi Asiya ölkələri ilə sərhədi pozmayacaqlar. Lakin buna kimsə təminat verə bilməz. Bu mənada Mərkəzi Asiya ölkələri təhlükəsizlik adına bu cür əməkdaşlıq etmək məcburiyyətindədirlər. Pakistana gəlincə, "Taliban" nümayəndələri ilə Pakistan arasında müəyyən əlaqələrin olması kimsəyə sirr deyil. "Taliban" Əfqanıstanda real gücdür. Bunu da inkar edə bilmərik".

R.Məmmədsoy hesab edir ki, bu, hər bir tərəfi qane edir: "Əfqanıstanda sülhün bərqərar olması üçün dördtərəfli platforma yaradılması çox vacibdir. Pakistanın da bu məsələdə vasitəçi qismində iştirak etməsi gözlənilən idi".

**Aynurə**

# Ukrayna müharibə havasındadır

*Ancaq Rusiya ilə təkbaşına üz-üzə gəlmək risklidir*





Ukrayna Silahlı Qüvvələrinin Hərbi-Dəniz Qüvvələri Türkiyədən ilk "Bayraktar TB2" zərbə PUA kompleksini alıb. Bu barədə Ukrayna Müdafiə Nazirliyinin Mətbuat xidməti məlumat yayıb.

"Hərbi-Dəniz Qüvvələri üçün nəzərdə tutulmuş "Bayraktar TB2" zərbə PUA kompleksi Ukraynaya çatdırılıb. Hazırda kompleksin yekun təhvil-təslim sınaqalarını həyata keçiririk. Yüksək dəqiqliyə malik vasitələrlə Qara və Azov dənizləri akvatoriyasında və sahillərində effektiv müşahidə və mühafizəni təmin edəcək, düşmənin suüstü və yerüstü obyektlərini məhv etmək imkanı əldə edəcəyik", - Müdafiə Nazirliyinin "Facebook" hesabındakı məlumatında deyilir.

**Ukrayna ilə Türkiyənin xüsusilə İkinci Qarabağ müharibəsindən sonra daha da yaxınlaşdığını söyləyən politoloq Əhəd Məmmədli "Şərq"ə bildirib ki, Vətən savaşından sonra "Bayraktar"lar çox dəbə düşdü:** "Beləliklə, bir çox ölkə bu kompleksi qardaş ölkədən sifariş etməyə başladı. Məlumdur ki, Ukraynanın ərazi bütövlüyü problemi var. Ona görə də rəsmi Kiyev hərbi təlimləri genişləndirməyə başlayıb. İki ölkənin hərbi, eyni zamanda siyasi əməkdaşlığı daha sıx davam edəcək. Ukrayna müharibə havasındadır. Yəni ilk hədəfi Donbası azad etməkdir. Lakin qarşısında Rusiya durur. Düşünmürəm ki, Ukrayna iqtidarı indiki halda təkbaşına Rusiya ilə üz-üzə gəlsin. Amma rəsmi Kiyevin arxasında konkret şəkildə ABŞ dursa və Rusiyaya mesaj versə ki, "Ukrayna Donbası azad etməyə başlayacaq, müdaxilə etsən, qarşında məni görəcəksən" - o zaman Donbasda hərbi əməliyyatlar başlaya bilər. Lakin Amerikanın bu dəstəyi olmadığı təqdirdə Ukraynanın risk edəcəyini düşünmürəm".

**Yeganə Bayramova**

## Paşinyana qarşı olan iki mer həbs edilib



**Ermənistanın Gorus şəhərinin meri Aruş Aruşanyan barəsində 2 ay müddətinə həbs qətimkan tədbiri seçilib.**

"Report" "Novosti Armeniya"ya istinadən xəbər verir ki, bu barədə onun vəkili Armen Melkonyan iyulun 16-da jurnalistlərə bildirib.

Məlumata görə, Aruşanyana qarşı 5 maddə üzrə ittiham irəli sürülüb. O, vəzifə səlahiyyətlərindən suiistifadədə, qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmaqda, dövlətə və ya ayrı-ayrı şəxslərə, yaxud təşkilatlara iri məbləğdə ziyan vurmaqda, uyğun layihələrdən yayınmaqda, insan sağlamlığına zərər vurmaqda, ətraf mühiti çirkləndirməkdə, faydalı qazıntı yataqlarını qanunsuz istismar etməkdə və s. ittiham olunur.

Qeyd edək ki, ötən il dekabrın 21-də Ermənstanın Baş naziri Nikol Paşinyan Sisian, Gorus, Qafan və Meğriyə səfər planlaşdırmışdı. Ancaq yollar bağlanıldığından Gorusa gedə bilməmiş, kəndlərdən birində sakinlərlə görüşmüşdü.

*Xatırladaq ki, Sisianın meri Artur Sarkisyan da iyulun 16-sı gecə yarısı həbs edilib.*

*Həbs olunan hər iki mer Nikol Paşinyana müxalifətdə olanları dəstəkləyənlərdən, Baş nazirin regiona səfərinin boykotunu təşkil edənlərdən sayılırlar.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi**

# Qəhrəmanlarımızın həyatı böyük örnəkdir

*44 günlük Vətən savaşı gənc nəslin vətənpərvərlik ruhunda yetişməsində əhəmiyyətli rol oynayacaq*

Ölkəmizdə gənclərin milli mənlik şüurunun inkişaf etdirilməsində, vətənpərvərlik hisslərinin tərbiyəsində şanlı tariximiz əsas rol oynayıb. Hər bir fərdin ailədən uşaq bağçasına, oradan orta məktəbə, daha sonra ali təhsil müəssisəsinə uzanan həyat yolunda tarixi şəxsiyyətlərimiz, tarix boyu yurdumuza göz dikənlərin qarşısına çıxıb sinəsini sipər etmiş qəhrəmanlarımız ən gözəl nümənə, örnəkdir.

Alban hökmdarı Cavanşirə, Şah İsmayıla, Cavad xana kim bənzəmək istəməz ki?! II Cahan savaşında da qəhrəmanlarımız adlarını XX əsr hərb tarixinə yazdırdılar. Nankor qonşularımız torpaqlarımıza göz dikib ərazilərimizi işğal etmək həvəsinə düşəndə yenə igid oğullarımız Vətənin müdafiəsinə qalxdı. Zəfərlə başa çatan 44 günlük Vətən müharibəmizdə isə mərd oğullarımızın qəhrəmanlıq dastanı bütün dünyaya yayıldı. Xalqımız qəhrəman övladları ilə daim fəxr edir. Şəhidlərin xatirəsini hər zaman əziz tutur, Vətən qazilərini baş ucalığı hesab edir. Bütün bunlar öz təsdiqini dövlət siyasətində, dövlətin şəhid ailələri, müharibə iştirakçıları və veteranlarına göstərdiyi qayğıda əksini tapır. Məqsəd, bir tərəfdən şəhid ailələrinin, müharibə iştirakçılarının haqq etdikləri rahat, problemsiz yaşayışını təmin etməkdirsə, digər tərəfdən gənc nəslin mənəvi təkmilləşməsində, vətənpərvərlik hisslərinin tərbiyəsində bu amilin təsirini yüksəltməkdir. Şübhə yoxdur ki, şəhid ailələrinə, müharibə qazilərinə göstərilən hörmət və qayğı gənc nəslin milli-mənəvi tərbiyəsində böyük əhəmiyyət kəsb edir. Bu günlərdə Azərbaycan Respublikası Nazirlər Kabineti "Vətən Müharibəsi Qəhrəmanı" adı almış şəxslərlə bağlı Qərar qəbul edib. Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatında Vətən müharibəsi Qəhrəmanları üçün nəzərdə tutulan güzəştlər açıqlanıb:

1. Şəhid adını əbədiləşdirmə məqsədilə yerli rayon (şəhər) icra hakimiyyəti orqanları aşağıdakı tədbirləri həyata keçirirlər:

1.1. Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı və Azərbaycanın Milli Qəhrəmanı olan şəhidlərin büstlərini qoyurlar.

1.2. Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanları və Azərbaycanın Milli Qəhrəmanı olan, habelə vətən uğrunda döyüşlərə görə azı iki ordenlə təltif olunan şəhid adlarını küçələrə, meydanlara verirlər, həmçinin adların təşkilatlara, müəssisələrə, hərbi və mülki gəmilərə verilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabineti qarşısında vəsatət qaldırırlar.

2. Təhsil müəssisələrində milli qəhrəmanlara, şəhidlərə, müharibə iştirakçılarına aid stendlər, guşələr, muzeylər təşkil olunacaq.

3. Məcburi köçkünlər müvəqqəti yaşayış sahəsi ilə təmin olunarkən ailənin sayı, sosial tərkibi (şəhid ailələri, başçısını itirmiş ailələr, Qarabağ müharibəsi ilə əlaqədar əlilliyi olan şəxslər, xəstəsi daimi qulluq tələb edən ailələr, Milli Qəhrəman və Vətən Müharibəsi Qəhrəmanları, ailənin cinsi tərkibi, yaş fərqləri və s.) nəzərə alınacaqdır.

4. Vətən Müharibəsi Qəhrəmanları olmuş şəxslər vəfat etdikdə (həlak olduqda), onlara müvafiq qanunvericiliklə müəyyən olunmuş qaydada hərbi ehtiram göstəriləcəkdir.

5. Vətən Müharibəsi Qəhrəmanları xüsusi mühafizə olunan təbiət ərazisinə giriş zamanı ödənişdən azad edilirlər.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyası Azərbaycanın Vətən Müharibəsi qəhrəmanlarının imtiyazları və güzəştləri haqqında Azərbaycan Respublikası Qanununun qəbul olunmasına dair təkliflər hazırlayacaqlar.

Təbii ki, qəbul edilən qərar şəhidlərə və qazilərə yüksək sayğının göstəricisidir. Bundan hər kəs üzərinə düşəni götürəcək, daha çox isə gənclərimiz örnək alacaqlar.

**Əməkdar jurnalist, şair və publisist Elçin Mirzəbəyli "Şərq"ə açıqlamasında qeyd etdi ki, gənc nəslə milli şüurun, vətənpərvərlik hisslərinin aşılanmasında qəhrəmanların həyatı və onlara göstərilən diqqət və qayğı əsas şərtdir:**

-Azərbaycanda milli qəhrəmanların xatirəsinin əbədiləşdirilməsi, onların yad edilməsi dövlət siyasətinin tərkib hissəsi kimi daim gündəmdədir, həm də gənc nəslə bir mesajdır ki, Vətəni bu cür sevmək və onu qorumaq lazımdır. Gənclərimizin gözü önündə real qəhrəmanlarımız dayanır artıq. Mübariz İbrahimov, Polad Həşimov, Raquf Orucov, Cəbrayıl Dövlətzadə... Təkcə 44 günlük Vətən savaşı deyil, I Qarabağ savaşı, eyni zamanda bütün dövrlərdə canını Vətənə fəda edənlərin, dövlətimizin müstəqilliyi, suverenliyi uğrunda həyatından keçən igidlərimizin yaratdığı qəhrəmanlıq dastanlarının ədəbiyyat, bütövlükdə mədəniyyət və incəsənət müstəvisində saxlanması önəmlidir. Biz görürük ki, yeni doğulan körpələrə Vətən müharibəsi qəhrəmanlarının adları qoyulur. 5-10 il öncə bu proses fərqli istiqamətdə gedirdi. Deməli, qəhrəmanlarımızın keçdiyi şərəfli yol, gənclərə müsbət mənada təsir edir, onlara bənzəmək, onlar kimi olmaq istəyirlər, igid döyüşçülərimizin adlarını öz övladlarında yaşatmaq istəyir və onları özlərinə nümunə hesab edirlər. Bu, qəhrəmanlarımıza sayğıdır. Və bu hisslərin möhkəmlənməsində əlbəttə ki, qələbə ilə nəticələnən 44 günlük Vətən müharibəmizin böyük təsiri oldu. Hansısa bir küçəyə, parka şəhidin adı verilirsə, yaxud hansısa bir parkda qəhrəmanlarımızın abidəsi ucalırsa, əlbəttə, gənc nəsil üçün ən gözəl nümunədir. Valideynlər övladlarının milli ruhda tərbiyələnməsini istəyirsə, o şəhid haqqında övladına söz açsın. Bundan üstün və təsirli nəsə ola bilməz.



**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Gələcəyin ixtisasları ön plana çıxır

*Yeni nə nailiyyətlər varsa hamısını texnologiya sahəsində görürük*

2021-2022-ci tədris ilindən ali təhsil müəssisələrinin tələbələri üçün müasir peşələr üzrə mütəxəssislərin hazırlanması ilə bağlı yeni layihələrin icrası planlaşdırılır. Təhsil Nazirliyindən verilən məlumata görə, dövlət-özəl tərəfdaşlığına əsaslanacaq bu layihələrin reallaşması üçün hazırda yerli və xarici şirkətlərlə əməkdaşlıq imkanları dəyərləndirilir.

Bu istiqamətdə qabaqcıl təcrübəni tətbiq edən "Code Academy" şirkəti ilə İT sahəsində müasir biliklərə malik mütəxəssislərin yetişdirilməsində əməkdaşlıq ediləcək. Qeyd edək ki, təhsilalanların müasir ixtisaslara və peşə bacarıqlarına yiyələnməsi əsas fəaliyyət istiqamətlərindən biridir.

**Mövzu ilə bağlı təhsil eksperti Elçin Əfəndi "Şərq"ə açıqlamasında bildirib ki, ölkəmizdə son dövrlər informasiya texnologiyaları ilə bağlı yeni ixtisaslar yaradılır.** Buna misal olaraq informasiya təhlükəsizliyini, magistr səviyyəsində kibercinayətkarlıqla mübarizəni, informasiya texnologiyalarında kompüter mühəndisliyini və s. aid edə bilərik. Düşünürəm ki, ali təhsil müəssisələrində bu ixtisasların olması gələcəkdə peşəkar kadrların hazırlanmasında müəyyən qədər inkişafa gətirib çıxaracaq: "Çünki bilirsiniz ki, indi informasiya əsridir. Və biz yeni nə nailiyyətlər varsa hamısını texnologiya yönümündən görürük. Ona görə də bizdə də bu sahədə müvafiq olaraq kadrların hazırlanması vacibdir".



**E.Əfəndi ali təhsil müəssisələri ilə yanaşı peşə təhsili müəssisələrində də artıq kadr islahatlarına başlanıldığını diqqətə çatdırıb:** "Qardaş ölkə Türkiyə ilə bu istiqamətdə müvafiq razılaşmalar, anlaşmalar var. Ordakı təhsil tədris sisteminin burada da tətbiqi, bilik və bacarıqların öyrənilməsi nəzərdə tutulur. Eyni zamanda informasiya texnologiyalı yönümlü ixtisaslar üzrə də peşə təhsili alan şəxslərə gələcəkdə subbakalavr dərəcəsinin verilməsi qərarlaşdırılıb. Bu da gələcəkdə onların ali təhsil müəssisələrinə imtahan vermədən, yəni müsabiqədən kənar qəbul olmalarına imkan yaradacaq. Ümumilikdə isə bütün bunlar gələcəkdə ixtisaslı kadrların formalaşmasına, bu sahədə kadr ehtiyatının mövcud olmasına gətirib çıxaracaq. Eyni zamanda yeni texnoloji nailiyyətlər sahəsində ölkəmizin də nailiyyət qazanmasına zəmin yaradacaq. Hesab edirəm ki, bu istiqamətdə işlərin aparılması dövlət və dövlətçiliyin, eyni zamanda cəmiyyət və xalq adına mütərrəqqi bir addımdır, yanaşmadır".

**Aynurə Pənahqızı**

# Azərbaycan məhsullarını sərhəddən buraxmırlar

Ötən gün Rusiyanın Baytarlıq və Fitosanitar Nəzarəti üzrə Federal Xidmətinin ("Rosselxoznadzor") Qafqaz Bölgələrarası İdarəsi Azərbaycandan Rusiya ərazisinə meyvə və tərəvəzin gətirilməsinə icazə verməyib. Karantin fitosanitar nəzarəti nəticəsində Azərbaycandan gətirilən 83,2 ton pomidor və 36,9 ton şaftalı Rusiya ərazisinə buraxılmayıb.



## "Rusiya iqtisadi bazardan həm də bir ticarət silahı kimi istifadə edir"

## *Pomidorun bir qutusunun ekspertizası üçün 5 dollar pul alırlar*

Meyvə-tərəvəzlərin buraxılmamasının səbəbi Ümumrusiya Bitki Karantin Mərkəzinin Dağıstan şöbəsinin məhsullarda pomidor güvəsi və şərq güvəsinin aşkarlanmasını təsdiqləyən laboratoriya hesabatı olub. Karantin qanunvericiliyinin tələblərinə uyğun olaraq mallar ixracatçı ölkələrə geri qaytarılıb, günahkar şəxslər isə inzibati məsuliyyətə cəlb edilib. Azərbaycanda kənd təsərrüfatı məhsullarını istehsal edən fermerlər uzun müddət idi ki, onun satışında problem yaşayırdılar. Onların sözlərinə görə, məhsulun Rusiya bazarına çıxarılması xeyli çətinləşib. Mayın 25-də Göyçay fermerləri Ləkciplaq kənd inzibati ərazisində toplaşaraq etiraz ediblər. Fermerlər deyirlər ki, istixanalardan toplanan məhsulları yerli bazarlarda satıb qurtarmaq mümkün deyil. Çünki məhsul boldur. Pandemiyaya görə şadlıq evlərinin, kafe-restoranların, dönərxanaların və digər obyektlərin fəaliyyət göstərməməsi səbəbindən daxili alıcılar yox səviyyəsinə enib. Əslində Rusiya tərəfi də məhsullarımızı qəbul edir. Amma problemin kökü Azərbaycan-Rusiya sərhədində yaranan tıxacdır. Avtomobillərlə sərhədi keçmək 10-15 gün çəkir. Nəticədə məhsullar yararsız hala düşür. Digər problem yük avtomobillərinin daşıma xərclərini artırması ilə bağlıdır. Əgər ötən il bir yük avtomobili məhsulları Rusiya ərazisinə 1500 dollara aparırdısa, bu il 4000 dollara daşıyır. Bu da alıcılar üçün əlavə çətinlik yaradır və sonda zərər kəndliyə dəyir.

**Mövzu ilə bağlı iqtisadçı-alim, sabiq deputat Nazim Bəydəmirli "Şərq"ə açıqlama verib. O, kənd təsərrüfatı məhsullarının Rusiyaya buraxılmamasının arxasında hər hansı bir siyasi oyunun olub-olmadığını şərh edib.** Ekspert ilk olaraq diqqətə çatdırıb ki, beynəlxalq ticarətdə qida təhlükəsizliyi ilə bağlı ölkələr arasında müəyyən anlaşmalar var. Əgər Azərbaycan tərəfindən müəyyən fitosanitar karantin sertifikatları verilibsə və onu Rusiya tərəfi tanıyırsa, belə hadisələr əslində çox az olmalıdır: "Ancaq görünən odur ki, hətta mətbuatda da məlumat verilmişdi ki, ekspertizaya müxtəlif monopolistlər əl qoyub. Pomidorun bir qutusunun ekspertizası üçün sahibkarlardan 5 dollar pul alırlar. Təbii ki, bunlar qeyri-rəsmi olaraq həyata keçirilir. Həmçinin burda müxtəlif ehtimallar ola bilər. Təbii ki, ehtimallardan ən böyüyü və realı budur ki, monopoliyadan kənar Rusiyaya belə məhsul aparanları bizim monopolistlər Dağıstanda, Rusiyanın müxtəlif bölgələrində əlaqə qurduqları həmin dövlət orqanlarının əli ilə vurub bazardan çıxarırlar".

**N.Bəydəmirli qeyd edib ki, keçən ilin sonlarından başlayaraq bir neçə dəfə də belə addımlar atılıb:** "Bütövlükdə Azərbaycandan gedən pomidor, alma və digər məhsulların Rusiyaya daxil olmasını guya standartlara cavab vermədiyi əsas gətirərək bloklamışdılar. Bunu müxtəlif danışıqlar aparıldıqdan sonra aradan qaldırdılar. Bundan sonra bir neçə şirkətə individual olaraq icazə verilməyə başladı. Bu məndə ciddi şübhələr yaratdı ki, bu, məmur sahibkarlığının monopoliya yaratmağı ilə bağlıdır. Hesab edirəm ki, bu bizim üçün əslində yenilik deyil. Rusiya iqtisadi bazardan həm də bir ticarət silahı kimi istifadə edir. Müxtəlif addımlar ataraq zaman-zaman məhdudlaşdırır və bunu siyasi təzyiq kimi tətbiq etdiyi hökumətlərlə "danışıq" mövzusuna gətirir. Burda daha çox Azərbaycan istehsalçılarını yox, Rusiya tərəfini günahlandırıram. Təbii ki, Rusiya ən korrupsiyalaşmış və kriminal dövlətlərdən biridir. Belə ehtimalların olması da çox yüksəkdir".

**Aynurə Pənahqızı**



# Ananın narkotik istifadəçisi olduğu təsdiqləndi

## *Sığınacağa yerləşdirilən 3 yaşlı uşaqda isə xəstəliklər aşkarlanıb*

Ötən gün sosial şəbəkələrdə Suraxanı rayonunda bir qadının azyaşlı uşağının gözü qarşısında narkotik vasitələrdən istifadə etdiyi ehtimal olunan video görüntüləri yayımlanıb. Bu görüntülərdən dərhal sonra ərazi üzrə Suraxanı Rayon Polis İdarəsinin əməkdaşları rayon icra hakimiyyətinin yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın üzvləri ilə birgə həmin ünvana baxış keçiriblər.

Araşdırma zamanı həmin ailə üzvləri ana Arzu Mehtiyeva və ata Valeh Balacayevin tüfeyli həyat tərzi keçirdikləri müəyyən edilib. Ananın və atanın narkotik maddələrdən istifadə etdikləri şübhə doğurduğundan onlar polis bölməsinə dəvət ediliblər. Arzu Mehtiyeva və Valeh Balacayevin narkotik maddələr aludəçisi olub-olmadıqlarını müəyyən etmək üçün onlar narkoloji mərkəzə göndəriliblər. Azyaşlı körpə isə Azərbaycan Uşaqlar Birliyinin sığınacağına yerləşdirilib.

Mövzu ilə bağlı Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadəylə əlaqə saxladıq. Birliyin sədri "Şərq"ə açıqlamasında bildirib ki, 3 yaşlı Səidə zərərli vərdişləri olan ailədən artıq uzaqlaşdırılıb: "Qeyd edim ki, mən ana ilə söhbət apardım. Müsahibələrimə əsasən deyə bilərəm ki, qadın və yoldaşı narkotik istifadəçiləridir. Xanım özü də müəyyən maddələri qəbul etdiyini təsdiq elədi".

**K.Ağazadə əlavə edib ki, 3 yaşlı körpə dünən Suraxanı Rayon İcra Hakimiyyəti tərəfindən rəsmiləşdirilərək, aktlaşdırılıb onların birliyinə təhvil verilib:** "Bu günləri mütəxəssislər, pediatrlar uşağın müayinəsi üçün dəvət olundular və ona ilkin baxış keçirildi. Baxış zamanı onun nevroloji xəstəliyi olması təsdiqləndi. Həmçinin, müayinə zamanı körpədə asosiallığın olduğu müəyyənləşdirilib. Çünki uşaqla demək olar ki, ünsiyyət qurulmayıb. Uşağın üç yaşı olsa da, o hələ bir-iki sözdən artıq heç nə deyə bilmir. Hazırda bu istiqamətdə iş aparılır, yəqin ki, yaxın zamanlarda hüquqi tərəfdən işlər də görüləcək".

**Aynurə**

# Xəyallarınıza belə gətirməyin

"Hazırda insanların beyninə yeridilir ki, guya, "Delta" və "Delta-plyus" ştammları daha çox hallarda kəskin mədə-bağırsaq pozğunluğu və diareya törədir. Yəni bu göstəricilər bu ştammlara xas olan spesifik əlamətlərdən birincisidir".



## Hər mədə-bağırsaq pozğunluğu yaşayan "Delta" ştammına yoluxmur

**Bu fikirləri "Şərq"ə açıqlamasında tibb elmləri doktoru, professor Musa Qəniyev deyib.** Bir düşünün, bütün tarixi dövrlərdə yay fəslində ən çox hansı xəstəliklər ön plana çıxır? Təbii ki, mədə-bağırsaq pozğunluğu və diareya ilə müşahidə olunan infeksion və qeyri-infeksion xəstəliklər. Professor əlavə edib ki, yəni biri dənizdə çimərkən qarnına duzlu su gedərsə, yaxud da yağlı yemək yeyərsə, günün altında çox qalarsa, tərkibində "nitrat" çox olan qarpız yeyərsə və qarnı ağrıyarsa, bunları "Delta" və "Delta-plyus" ştammları ilə əlaqələndirmək sadəcə gülüncdür. Çünki mədə-bağırsaq pozğunluğunda bu ştammların demək olar ki, heç bir rolu yoxdur. Hətta olsa belə, bu yalnız sıfır üstü faiz nisbətindədir. Unutmaq olmaz ki, bütün bu hallarda baş verən kəskin mədə-bağırsaq pozğunluğu və diareya, yalnız orqanizmin özünüqoruma (virus yükünün orqanizmdən qovulması), yeni kompensator müdafiə reaksiyasıdır. Onu hansısa bir infeksiyaya, o cümlədən "Covid-19"-un mutant ştammlarına xas olan spesifik və selektiv klinik əlamət hesab etmək olmaz".

**Professor qeyd edib ki, digər tərəfdən, "Covid-19" və onun bütün mutant ştammları, o cümlədən, "Delta" və ya "Delta-plyus" hüceyrə daxilinə yalnız angiotenzin çevrici ferment reseptorları subtipinə bağlanmaq yolu ilə daxil olur:** "Onların digər yoluxdurma yolu yoxdur, olmayıb və ola da bilməz. Çünki bu virus, yalnız reseptor mexanizmlərə bağlanaraq yoluxduran virusdur. Əks halda, onlar koronavirus ailəsi adlandırılmazdı. Ona görə də mədə-bağırsaq pozğunluğu və ya diareya zamanı "deyəsən mən "Delta" ştammına yoluxmuşam deyə, nəinki düşünməyin, hətta belə şeyi, heç xəyalınıza gətirməyən. "Covid-19"-u unudun".

**Aynurə Pənahqızı**

Son zamanlar demək olar ki, "Pop İt" oyuncağı bütün uşaqların sevimlisinə çevrilib. Kiçikdən böyüyədək hər kəsin əlində göy qurşağının rənglərini özündə birləşdirən bu oyuncaqlara rast gəlinir. Lakin oyuncaqda diqqət çəkən əsas məqam onda olan rənglərin LGBT bayrağının rənglərini özündə ehtiva etməsidir. Bunu anlamayan valideynlər isə kortəbii şəkildə həmin oyuncaqları bu günləri də almaqdadırlar. Bəzi valideynlər bu səbəbdən dövlət tərəfindən həmin oyuncağın alınmasını və ölkəyə gətirilməsinin qadağan edilməsinin tərəfdarıdır.



# "Pop İt"lərdən qaçın!



## Uşaqların şüruna yeridilən təbliğatın qarşısı alınmasa, ciddi fəsadları olacaq

Valideynlər iddia edirlər ki, bu oyuncaqlar vasitəsilə uşaqlarda homoseksuallığa qarşı xüsusi maraq oyana bilər. İddialarda rənglərin uşaq psixologiyasında xüsusi yerinin olduğu səbəb gətirilir və bunun azyaşlıların kiçik yaşlarından eynicinslilərə "məhəbbət" oyadıldığı bildirilir.

**Mövzu ilə bağlı ekspertlərin fikirlərini öyrəndik. Sosioloq Lalə Mehralı "Şərq"ə açıqlamasında bildirib ki, bu oyuncaqlar uşaqların şüur altına hesablanmış bir addımdır. O qeyd edib ki, əgər şirkətlər bu cür oyuncaq istehsal edirdilərsə, onu tamamilə fərqli rənglərdə edə bilərdilər:** "Bu oyuncaqlara diqqət yetirdikdə onun rəngləri eyni olmaqla yanaşı, hətta LGBT bayrağının sıralaması da eynilə həmin bayrağı əks etdirir. Bu oyuncaqda mən hər hansı fiziki, zehni inkişaf yaradan nəsə görmürəm. Sadəcə kiçik qabarcıqlardı, barmaqlar vasitəsilə oynadılır. Yəni uşaq psixologiyasına müsbət təsir edə biləcək bir oyuncaq deyil. Biz adətən oyuncaqları ona görə seçirik ki, uşaqlarımızın inkişafına müsbət təsir eləsin və onun xəyal dünyasını genişləndirsin, həmçinin əqli və fiziki inkişafına müsbət dəyişiklik göstərsin. Xatırlayırsınızsa, bir vaxtlar stres çarxı deyilən bir oyuncaq dəbə minmişdi. Yəni hara baxırdın, görürdün ki, uşaqlar əllərində onu fırladır. İndi də bu "Pop İt" deyilən oyuncaqlar uşaqlar arasında geniş yayılıb. Təbii ki, bu, işbazların oyunlarından biridir. Amma bu və ya digər formada onlar bizim şüur altımıza təsir edərək psixologiyamızı korlamağa, düşüncə tərzimizi dəyişməyə çalışırlar. Düzdür, bəziləri deyə bilər ki, "Pop İt" uşaqlar üçün normal oyuncaqdır. Bu, düzdür. Amma rənglər çox təəssüf ki, uşaqlarımızın yaddaşına yazılır. Təbii ki, onlar nə vaxtsa LGBT bayrağı ilə rastlaşanda bunu tamamilə normal, sıradan bir vəziyyət kimi qəbul edəcəklər. Yəni qlobal güclər insanların psixologiyasını bu cür sadə və rahat formada dəyişə bilirlər. Bilirisiniz ki, bizim yaş qrupumuzda olan insanların bu mövzuda psixologiyasına təsir etmək çətindir. Ancaq övladlarımız üzərində bunu etmək

### Valideynlərin oyuncaq və geyim alarkən diqqətli olmaları tövsiyə olunur

çox rahat və asandır. Ümumiyyətlə, qlobal güclərin uşaqlara təsir imkanları əllərində boldur. Çox təəssüflər olsun ki, bu günləri onlar texnologiya və bu cür oyuncaqlarla uşaqların psixologiyalarına təsir etmək imkanlarına sahibdir. Bu baxımdan gərək hamımız diqqətli olaq. Övladlarımıza nəyi aldığımızı, nəyi aldırmaq istədiyimizin fərqində olaq. Diqqətli olan valideyn üçün təhlükə minimuma enir. Diqqəti olmayan valideynlər və ya LGBT bayrağı barədə təsəvvürü olmayanlar, LGBT-nin hansı kateqoriyaya aid olan insanlar ətrafında cəmləndiyini bilməyənlər üçün təbii ki, bu, təhlükədir. Bu təhlükə hələ də davam edir".

**AĞ Partiyanın başqanının birinci müavini Əhəd Məmmədli "Şərq"ə açıqlamasında deyib ki, bu oyuncaqlar birmənalı şəkildə təbliğatdır. Politoloqun sözlərinə görə, bu təbliğatın mərkəzində maraqlı qüvvələr var və onların da əsas məqsədi bu əxlaqsızlığı yaymaqdır:** "Məlum olduğu kimi, bu oyuncaqların üzərində olan rənglər LGBT bayrağının rənglərini əks etdirir. Çox təəssüflər olsun ki, bu rəngləri uşaqlarımızın şüuruna məqsədli şəkildə yayırlar. Ukraynada bununla bağlı məsələ çox acınacaqlıdır. Bizdə isə şükürlər olsun ki, o yöndə deyil. Amma çox təəssüflər olsun ki, hazırda uşaqlarımızı buna doğru itələyirlər. Bunun qarşısı mütləq şəkildə tezliklə alınmalıdır. Dövlət ilk növbədə elə oyuncaqları sərhədə buraxmamalıdır. Həmçinin dövlətimiz tərəfindən geyimlərdən tutmuş oyuncaqlara qədər milli-mənəvi dəyərlərimizi əks etdirməyən heç bir şey ölkə daxilinə buraxılmamalıdır. Qeyd edim ki, bu məsələyə ciddi diqqət yetirilməsə, bu çox geniş yayılacaq. Ona görə də bu cür əxlaqsızlığın qarşısı alınmalıdır. Çünki bizim var dış düşmən, bir də var iç düşmən. İllərdir, əsrlərdir qurduğumuz institutları dağıtmaq istəyən və xaricdən maliyyələşən iç düşmənlər bu təbliğatla məşğuldurlar. Bu iç düşmənin fəaliyyətlərinin qarşısı dövlət tərəfindən alınmalıdır. "Pop İt" oyuncağına diqqət yetirsəniz, adı da bu əxlaqsızlığı təbliğ və təşviq edir. Təəssüf olsun ki, gömrükdən bu cür oyuncaqlar keçirilir. Qeyd edim ki, dövlət ideologiya üstündə qurulmalıdır. Dövlət ideologiya üstündə qurulmayanda daxilən sarsılır və məhvə doğru gedir. Ona görə də bu cür məsələlər dövlət tərəfindən ciddi şəkildə araşdırılmalı və qarşısı alınmalıdır. Fikir verirsinizsə, əvvəllər az insanlar cırıq şalvarlar geyinirdi, artıq bu geyim dəbə çevrilib. Hesab edirəm ki, bunun qarşısı tez alınmasa, ciddi fəsadlar baş verə bilər. Çünki bəzi qüvvələr Azərbaycanı əxlaq və mədəniyyət baxımından Niderlanda çevirmək istəyirlər".

**Psixoloq Elnur Rüstəmov da məsələyə münasibət bildirib. Psixoloq "Şərq"ə açıqlamasında diqqətə çatdırıb ki, son zamanlar nəinki oyuncaqlar, hətta paltarlar üzərində bu cür rənglərə rast gəlmək mümkündür:** "Bu məsələlər məqsədli şəkildə də, təsadüf də ola bilər. Ancaq bu kimi hallar daha çox məqsədli şəkildə edilir. Bəzən valideynlər bu haqda yetərli qədər bilgili olmurlar və bunu sıradan bir hadisə kimi qəbul edirlər. Düşünürəm ki, valideynlər bu kimi məsələlər də özləri diqqətli və məlumatlı olmalıdır. Söhbət məsələyə pis-yaxşı baxmaqdan getmir. Söhbət bu təsirlərdən qorunmaqdan gedir. Ona görə də valideynlərin bu istiqamətdə çox diqqətli olmaları məsləhət görülür. Çünki bu kimi hallar uşaqların şüuruna məqsədli şəkildə yeridilir. Ona görə də oyuncaq və geyim alarkən diqqətli olmaları tövsiyə olunur".

**Aynurə Pənahqızı**

# Vaksinasiyadan başqa çarə yoxdur

## Uşaqları daha çox qorumaq lazımdır



**Qazaxıstanda uşaqlar arasında COVID-19-a yoluxma halları artmaqdadır. Bu barədə tibb elmləri doktoru, yüksək kateqoriyalı pediatr Sagira Abdraxmanovanın açıqlamasına istinadla xəbər yayıb.**

"Bu gün çox həyəcanverici bir vəziyyət yaranıb. Dünyada uşaqlar arasında xəstəliyə yoluxma nisbəti yüksəkdir və təəssüf ki, biz də geri qalmırıq. Təkcə bu gün təxminən 38 min uşaq yoluxma ilə qeydiyyata alındı", - deyə o bildirib. Eyni zamanda, Abdraxmanova qeyd edib ki, 2021-ci ilin əvvəlindən 31 572 uşaqda COVID-19 aşkarlanıb. "Məhz son bir ayda çox sayda uşaq xəstələnməyə başladı", - deyə o, uşaqların təxminən 50 faizinin xəstəliyi simptomsuz keçirdiyini vurğulayıb.

**Həkim-pediatr Vaqif Qarayev "Şərq"ə açıqlamasında "Delta" ştammının yayılması fonunda valideynlərə xəbərdarıq edib:** "Delta" ştammının spesifik xüsusiyyəti daha çox yoluxuculuq qabiliyyətinə malik olmasıdır. Uşaqlardan daha çox böyüklər özlərini qorumalıdırlar. Çünki uşaqlara virus çox zaman məhz ana-atalardan keçir. Qorunmaq üçün isə "Amerika kəşf etməyə" ehtiyac yoxdur. Köhnə qaydalara əməl etmək lazımdır. Və nəzərə almalıyıq ki, vaksinasiyadan başqa çarə yoxdur. Nə qədər qapanmaq olar axı?!".

**Kənan**

# 11 nəfər saxlanıldı

## Onlar "TikTok"da narkotik vasitələri təbliğ edirdi



**Daxili İşlər Nazirliyi (DİN) Baş Narkotiklərlə Mübarizə İdarəsinin sosial şəbəkələrdəki hesablarına vətəndaşlardan daxil olan çoxsaylı müraciətlər əsasında "TikTok" platformasında narkotik vasitələri təbliğ edən musiqili meyxana janrında videolar yayan şəxslərə qarşı tədbirlər həyata keçirilib.**

DİN-dən "Şərq"ə bildirilib ki, nəticədə Baş İdarə və ərazi polis orqanları tərəfindən həmin videoları yayan şəxslərin anket məlumatları qısa zamanda müəyyən olunub. Baş İdarənin əməkdaşları tərəfindən "TikTok" sosial şəbəkəsində narkotik vasitələri təbliğ edən musiqilər yayan 11 nəfər - Fərid Bağırov, Orxan Hüseynov, Kərim Zeynalov, Tərlan Dəmirov, Riad Misirli, Əli Əliyev, İlkin Cəfərov, Elçin Rüstəmov, Kamil Əliyev, Qurbanəli Əlizadə və Yusif Zairov qısa zamanda saxlanılıblar. Bu şəxslərlə profilaktik söhbətlər aparılıb, paylaşdıqları videoların zərərləri, sosial şəbəkələrdə yeniyetmə və gənclərə göstərdiyi mənfi təsirlər barədə onlara məlumatlar verilib. Adları çəkilən şəxslərin "TikTok" sosial şəbəkəsində paylaşdıqları bu tipli videoların silinməsi təmin edilib.

*Qeyd edək ki, bu şəxslər barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri ilə protokollar tərtib edilib və törətdikləri əmələ hüquqi qiymət verilməsi üçün barələrində toplanmış materiallar məhkəmələrə göndərilib.*

**Aynurə**

# Aşıq Namiq ittihamları qəbul etmir

*“Oyun qurub məni gözdən salmaq istəyir”*



Aşıq Namiq Fərhadoğlu (Namiq Hüseynov) barəsində hüquq-mühafizə orqanlarına şikayət daxil olub.

Bir xanım N.Fərhadoğlu tərəfindən döyüldüyünü və aşığın ona qarşı seksual xarakterli hərəkətlər etdiyini iddia edib.

N.Fərhadoğlu açıqlama yayaraq qeyd olunan şikayət üzrə polis şöbəsinə çağırıldığını, ifadə verdiyini söyləyib. O, ünvanına səsləndirilən ittihamları təkzib edib. Xanımın bildirdiyi kimi hadisənin yaşanmadığını, bunun böhtan olduğunu xüsusi vurğulayıb.

Xatırladaq ki, bir müddət öncə də başqa bir xanım N.Fərhadoğlunu şikayət edib. Onun sosial şəbəkədə etik olmayan təkliflər etdiyini, tələblərinə əməl etməyəcəyi təqdirdə hədə-qorxu gəldiyini bildirib. N.Fərhadoğlu isə efirdə xanımın ünvanına qeyri-etik ifadələr səsləndirib. Bununla yanaşı polisə tabesizlik nümayiş etdirib.

**Sonuncu olayla bağlı ”Şərq”ə danışan aşıq onda şok görüntülərin olduğunu söyləyib:** ”Qız yalandan deyir ki, Namiq məni döydü və sair etdi. Onun mənlə mehriban danışığını, videonu hesabımda paylaşacam. Bu, şər, böhtandır. Yanıma necə gəlib, sonra taksi ilə onu yola salmışam, hər biri üzə çıxacaq. İddia edir ki, qaçdım, qurtuldum. Bu da yalandır. Qara piardır. Səbəbi isə gündəmdə olmağım, veriliş aparmağım, çox toylara getməyimdir. Aşıqlardan irəlidəyəm. Bir aşıqla dalaşmışam. Adını hallandırmaq istəmirəm. Özü də yerlimdir. Həmin qadının övladı da onun tələbəsidir. Aşıq da belə bir oyun qurub ki, məni gözdən salsın”.

**Samirə**



## “Alçaq kişilərin..."

Pərvin Abıyeva təcavüzə məruz qalan qızdan yazdı

**Azərbaycanda dəhşətli hadisə baş verib. On üç yaşlı qız anası öldükdən sonra həm atası, həm də qardaşı tərəfindən zorlanıb.**

Bu olay sosial şəbəkələrdə hiddətlə qarşılanıb. Hamı ağlasığmaz hadisəyə kəskin etiraz edib.

**”Şərq”in məlumatına görə, aktrisa Pərvin Abıyeva da məlum olaydan yazıb. O, bunları deyib:** ”Həmin qız bir ömür travmalarla yaşayacaq. Tək böyüyəcək, min cür çətinliklərdən keçəcək. Hələ necə ”kişi” ondan istifadə edəcək. Vay o gündən tanınmış insan ola... Nəinki əks cinsin nümayəndələri, hətta qadınlar belə ona təhqirlər, ittihamlar yazacaqlar. Heç onun bu qız olduğunu bilmədən edəcəklər. Alçaq kişilərin gələcəyi qaralmış daha bir qız qurbanıdır. Halbuki o, tamam başqa ata, qardaş sevgisi və qayğısı ilə böyüyə bilərdi”.

**Samirə**

## Uşağın adını dəyişiblər

Mətanət İsgəndərli ilə keçmiş gəlini arasında qovğa bitmir



**Əməkdar artist Mətanət İsgəndərli ilə eks gəlini Canana arasındakı qalmaqal səngimək bilmir.**

Xatırladaq ki, ötən il sənətçinin oğlu Kərimdən ayrılan Canana onun uşaqlara fiziki şiddət göstərdiyini söyləyib. Həmçinin Kərimin övladlarına maddi dəstək olmadığını, onların kirayədə yaşadığını deyib.

Yaxın günlərdə Rusiyadan qayıdan əməkdar artist və oğlu uşaqları görməyə gəliblər. Bir neçə gün müğənninin nəvələri onun yanında qalıblar. Lakin keçmiş gəlini onların uşaqlarına diqqətsizlik etdiyini, bir oğlunu it dişləsə də, həkimə aparmadıqlarını söyləyib.

M.İsgəndərli bu dəfə də səssiz qalmayıb.

**”Şərq” xəbər verir ki, sənətçi instaqramda yeni videosunu paylaşıb. O, Gəncə Dövlət Filarmoniyasının solisti Rövşən Məmmədovun övladları ilə görüntülərini profilində yerləşdirib. Mətanət xanım bunları söyləyib:**

”Mənim Mətanət adında iki nəvəm var. Biri Rövşənin qızıdır. Digəri də oğlum Kərimin qızı Mətişimdir”.

Qeyd edək ki, Canana Kərimdən ayrıldıqdan sonra qızı Mətanətin adını dəyişərək Elay edib. Bu səbəbdən də M.İsgəndərlinin keçmiş gəlininə replika atdığı düşünülüb.

**Samirə**

# Dəniz trend olan musiqini dinləyir

*Qızı Zülfiyyə Xanbabayevanın mahnılarına çox qulaq asmır*



Xalq artisti Zülfiyyə Xanbabayeva "Persona" verilişində qonaq olub. O, proqramda ailəsindən və sənətindən bəhs edib. "Şərq" xəbər verir ki, sənətçi qızı haqda da danışıb:

”Gecə özüm-özümlə söhbət edirəm. Onda narahat oluram ki, görəsən Dənizin universitetdə oxumağını, ailə qurmağını, övladlarını görə biləcəyəmmi? Yalnız onun qorxusu var. Daim - xoşbəxt anlarında, mənə ehtiyacı olan zamanlarda, kimsə onu incidəndə yanında olmaq istəyirəm. Qızımla daha çox adi şeylərdə, məsələn, geyim seçimində, film izləyəndə, musiqi dinləyəndə fikirlərimiz uyuşmaya bilir. Dəniz tamamilə fərqli musiqilərə qulaq asır. O, dünyada trend olan mahnıları dinləyir. Mən onunla ayaqlaşmağa razıyam. Ötən dəfə telefonunda dinlədiyi mahnılara nəzər yetirdim. Çox gözəl zövqü var. Özünə də dedim ki, afərin. Bir neçə janrla maraqlanır. Mənim mahnılarıma çox qulaq asmır. Hələ balacadır. İfalarımdakı hisslər, duyğular üçün yaşı azdır. Böyüdükcə qəlbinə həmin mahnılar girəcək”.

*Xatırladaq ki, müğənni ”Simurq” futbol klubunun eks-prezidenti Zaur Məmmədovla evlidir. O, 2007-ci ildə ana olub.*

**Samirə**



## Xınayaxdıdan görüntülərini paylaşdı

*Rəqsanənin qızı deyəsən ərə gedir*

**Müğənni Aysun İsmayılova instaqram paylaşımı ilə diqqət çəkib.**

”Şərq” xəbər verir ki, o, xınayaxdıdan görüntülərini paylaşıb. Lakin Aysun öz xınayaxdısı olduğunu söyləyib. Hətta ifaçı bir belə videosunu da paylaşıb. Müğənni anası Rəqsanə İsmayılova ilə videosunu profilində yerləşdirən Aysun ”Ana, axır ki, gedirəm” deyib. Əksəriyyət bunun klip çəkilişi olduğunu düşünüb.

**Samirə**



# TƏKRAR HƏRRACLARIN KEÇİRİLMƏSİNƏ DAİR ELANLAR

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 05.05.2021-ci il tarixli, 15-2B-6117 saylı sifarişi ilə, 1999-cu il buraxılışlı "Opel Zafira" minik markalı, 90-KC-258 dövlət qeydiyyat nişanlı avtomobilə dair 16 iyul 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş (II) təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin avtomobil satış qiyməti olan 5100 (beş min yüz) manatdan 30% aşağı, yəni 3.570 (üç min beş yüz yetmiş) manata olmaqla təkrar (sonuncu) açıq hərraca çıxarılmışdır.

Təkrar (sonuncu) hərrac 29 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 10%-i, yəni 357 (bir yüz əlli bir) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

(Əlavə olaraq "Qeyd"ə bax).

---

Şəmkir rayon İcra Şöbəsinin 03.05.2021-ci il tarixli, 115578-19/10944/21 saylı sifarişi ilə, Şəmkir rayonu, Qaranüy kəndində yerləşən JN-65A saylı "Torpağın mülkiyyətə verilməsinə" dair Şəhadətnaməyə əsasən mülkiyyətdə olan 0,10 ha həyətyanı torpaq sahəsinə dair 16 iyul 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş (II) təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin torpaq sahəsi satış qiyməti olan 7200 (yeddi min iki yüz) manatdan 30% aşağı, yəni 5.040 (beş min qırx) manata olmaqla təkrar (sonuncu) açıq hərraca çıxarılmışdır.

Təkrar (sonuncu) hərrac 29 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 252 (iki yüz əlli iki) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

(Əlavə olaraq "Qeyd"ə bax).

---

Şəmkir rayon İcra Şöbəsinin 26.05.2021-ci il tarixli, 97510/2019-12 saylı sifarişi ilə, Şəmkir şəhəri ərazisində yerləşən 0,04 ha torpaq sahəsinə dair 16 iyul 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş (II) təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin torpaq sahəsi satış qiyməti olan 4320 (dörd min üç yüz iyirmi) manatdan 30% aşağı, yəni 3.024 (üç min iyirmi dörd) manata olmaqla təkrar (sonuncu) açıq hərraca çıxarılmışdır.

Təkrar (sonuncu) hərrac 29 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 151 (bir yüz əlli bir) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

(Əlavə olaraq "Qeyd"ə bax).

---

Şəmkir rayon İcra Şöbəsinin 02.06.2021-ci il tarixli, 6307/2020-12 saylı sifarişi ilə, Şəmkir rayonu, Qədimqala kəndində yerləşən 1,1740 kənd təsərrüfatı təyinatlı, Şəmkir rayonu, Zəyəm qəsəbəsində yerləşən 1,0742 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi, Şəmkir rayonu, Zəyəm qəsəbəsində yerləşən 1,1484 ha torpaq sahəsi, Şəmkir rayonu, Zəyəm qəsəbəsində yerləşən 1,4322 ha torpaq sahəsi və Şəmkir rayonunda yerləşən 1,97 ha torpaq sahələrinə dair 16 iyul 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş (II) təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin torpaq sahələri satış qiyməti olan (1,1740 ha torpaq sahəsi) - 3369,6 (üç min üç yüz altmış doqquz manat altmış qəpik); (1,0742 ha torpaq sahəsi) - 3852 (üç min səkkiz yüz əlli iki; (1,1484 ha torpaq sahəsi) - 4104 (dörd min yüz dörd); (1,4322 ha torpaq sahəsi) - 5148 (beş min bir yüz qırx səkkiz); (1,97 ha torpaq sahəsi) - 11347 (on bir min üç yüz qırx yeddi) manatdan 30% aşağı, yəni (1,1740 ha torpaq sahəsi) - 2.358,72 (iki mi üç yüz əlli səkkiz manat yetmiş iki qəpik); (1,0742 ha torpaq sahəsi) - 2.696,4 (iki min altı yüz doxsan altı manat qırx qəpik); (1,1484 ha torpaq sahəsi) - 2.872,8 (iki min səkkiz yüz yetmiş iki manat səksən qəpik); (1,4322 ha torpaq sahəsi) - 3.603,6 (üç min altı yüz üç manat altmış qəpik); (1,97 ha torpaq sahəsi) - 7.942,9 (yeddi min doqquz yüz qırx iki manat doxsan qəpik) manata olmaqla təkrar (sonuncu) açıq hərraca çıxarılmışdır.

Təkrar (sonuncu) hərrac 29 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni (1,1740 ha) - 117,936 (bir yüz on yeddi min doqquz yüz otuz altı) manat; (1,0742 ha) - 134,82 (bir yüz otuz dörd manat səksən iki qəpik) manat; (1,1484 ha) - 143,64 (bir yüz qırx üç manat altmış dörd qəpik) manat; (1,4322 ha) - 180,18 (bir yüz səksən manat, on səkkiz qəpik) manat; (1,97 ha) - 397 (üç yüz doxsan yeddi) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

(Əlavə olaraq "Qeyd"ə bax).

---

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 02.06.2021-ci il tarixli, 7515/27708/19-15-18 saylı sifarişi ilə, "Avesta Konserni" MMC-yə məxsus Bakı şəhəri, Yasamal rayonu, 589-cu məhəllə, H.B.Zərdabi 74 ünvanında yerləşən 20 kv.m qaraj sahəsinə dair 16 iyul 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş (II) təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin qaraj sahəsi satış qiyməti olan 14.400 (on dörd min dörd yüz) manatdan 30% aşağı, yəni 10.080 (on min səksən) manata olmaqla təkrar (sonuncu) açıq hərraca çıxarılmışdır.

Təkrar (sonuncu) hərrac 29 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 10%-i, yəni 1.008 (bir min səkkiz) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

(Əlavə olaraq "Qeyd"ə bax).

---

**QEYD:** Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) iş günü qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

**Hərracın təşkilatçısı "Əmlak Hərrac Mərkəzi" MMC**

**Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.**

**Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com**

*rəsmi internet saytı: e-herrac.com*

## Hərracın keçirilməsinə dair elan

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 13.07.2021-ci il tarixli (daxil olma 15.07.2021), 10011-94282/19-15-19 saylı sifarişi ilə (1 ədəd) "İtimat" markalı duxovka və (1 ədəd) "Nikai" markalı mikrodalğalı soba açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 29 iyul 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakların ilkin satış qiyməti ümumilikdə 140 (bir yüz qırx) manat məbləğində müəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 10%-i, yəni ümumilikdə14 (on dörd) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına ödənilməlidir. Hərrac addımı - əmlakın ilkin satış qiymətinin 1%-dən çox olmamaqla.

(Əlavə olaraq "Qeyd"ə bax).

QEYD: Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) saat qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti.

**Hərracın təşkilatçısı "Əmlak Hərrac Mərkəzi" MMC**

**Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.**

**Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com**

**rəsmi internet saytı: e-herrac.com**

**Hörmətli "Nar" abunəçiləri!**

29.07.2021 tarixindən etibarən "Nar"ın internet paketlərində dəyişikliklər olacaq. Daha ətraflı məlumat nar.az səhifəsində yerləşdirilib.

**Elan**

"Ayqida Sənaye LTD" MMC Qeyri-yaşayış sahəsi: Sumqayıt şossesi 13-cü km-də yerləşən "Ayqida Sənaye LTD" MMC-yə məxsus 1 ha torpaq sahəsi və həmin torpaq sahəsində yerləşən 5860 kv.m-dən ibarət qeyri-yaşayış sahəsi satışa çıxarılır. Əmlakın dəyəri - 27000000.00 manat təşkil edir.


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**



Baş redaktor: **Akif Aşırlı**

Baş redaktorun ı müavini: **Yusif Nəzərli**

Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı

**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535

**www.sherg.az**

e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.

**Telefon: 447-32-41 538-44-50, internet 538-44-15,**

**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**

SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111

Kod 200112 M/H AZ37NABZ01350100000000001944

VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1243



# Evini təmirə başladı

## Torpağın altından 160 boulinq topu çıxdı

**ABŞ-ın Miçiqan ştatında yaşayan David Olson evindəki pilləkənləri yeniləmək üçün onu sökməyə başlayıb.**

”Şərq” ”Ntv.com”a istinadən xəbər verir ki, Olson pilləkənlərin altındakı torpağı qazarkən yerə basdırılmış 160 boulinq topu tapıb.

Topların 1950-ci illərdə istehsal olunduğu müəyyən edilib.

**Yeganə**

# Qiyməti hamını təəccübləndirib

## Dördbuynuzlu qoçunu 2 min manata satır



**Türkiyənin Adana şəhərində dördbuynuzlu qoçun qiyməti hamını təəccübləndirib.**

”Şərq” lent.az-a istinadən məlumatına görə, şəhər sakini Mikayıl Satılmış ”Bərəkət” adlı qoçunu Qurban Bayramı üçün satışa çıxarıb.

Satılmış qoçu bu günə qədər çox adamın almaq istədiyini, lakin o bunu qəbul etmədiyini bildirib. Bu bayram isə onu satmaq qərarına gəlib.

*Qeyd edək ki, 4 buynuzlu qoçun qiyməti 10 min lirə, təxminən 2000 manatadır.*

# Çox tərlədiyinə görə əməliyyat olundu

## Lakin anesteziyadan sonra ürək tutmasından öldü



**Meksikalı instaqram fenomeni 23 yaşlı Odalis Santos Mena qoltuqaltı tərləməni yox etmək üçün əməliyyat olunmağa qərar verdi.**

”Şərq” ”Haberglobal.com”a istinadən bildirir ki, Mena əməliyyat çərçivəsində tətbiq olunan anesteziyadan sonra ürək tutmasından ölüb. 147 min izləyicisi olan Odalis əməliyyatın sadə və təhlükəsiz olduğuna inandığı üçün ölümündən qabaq hətta belə bir tibbi prosesduru təbliğ də edib. Məlumata görə, əməliyyatdan öncə anestezioloq kimi təhsil almayan bir tibb işçisi tərəfindən Menaya dərman verilib. Ancaq müəyyən müddətdən sonra o, infarkt keçirib.

**Yeganə**

# “Heç böyüməyəcəyəm"

## 27 yaşlı qız sevgilisi tərəfindən öldürüldü



**İzmirdə motosikleti ilə səyahət edən Hatun Özsoy adlı qadın yaxınlaşan pikapdan açılan atəş nəticəsində həyatını itirib.**

Milli.Az haberler.com-a istinadən xəbər verir ki, Özsoyu öldürənin sevgilisi olduğu bəlli olub. 27 yaşlı Hatun Özsoyu öldürən Y.K. polisə təslim olub. Polis bölməsində dindirilməsi zamanı qadının bir sevgilisi olduğunu söyləyib. Hatun Özsoy təxminən iki ay əvvəl sosial media hesabında ”Ömrüm boyu sevdiyim insanları itirməkdən qorxurdum. Bəzən özümə sual verirəm. Kimsə qorxur məni itirməkdən? yazısı ilə ürəkləri fəth edib. Üç ay əvvəl talesiz qadının ”bəlkə bir gün qocalacağam, amma heç böyüməyəcəyəm” yazısı da diqqət çəkib.





# Sel fəlakətinin qurbanı

## Azadın orqanları başqalarına həyat olacaq



**Ədirnədə sel fəlakətinin faciə yaşatdığı ailə 14 yaşlı oğullarının orqanlarını bağışlamaq qərarına gəlib.**

”Şərq” Türkiyə mediasına istinadən xəbər verir ki, 14 yaşlı Azad Yapşıklı sel sularından xilas olmaq üçün qaz borusundan yapışıb, lakin boruda elektrik keçiriciliyi varmış və Azadı elektrik vurub. Uşaq xəstəxanaya aparılıb, 12 gün sonra isə beyin ölümü keçirib. Ailə üzvləri isə Azadın orqanlarını bağışlamaq istədiklərini bildiriblər. Azadın böyrəkləri, qara ciyəri və bağırsağı müxtəlif xəstəxanalarda orqan transplantasiyası gözləyən xəstələrə köçürüləcək. Azadın faciə ilə bitən həyatı ağır keçib. Valideynləri ayrılıb, atası həbsə düşüb. Azad anası Çiğdem Yapşıklı və qardaşı Berat ilə yaşayırmış. Ailəni dolandırmaq üçün məktəbdən ayrılıb, küçələrdə salfet satmağa başlayıb. Həbsdəki atasına da pul göndərirmiş. Azadın arzusu ünlü futbolçu olmaq idi. ”Fatihspor” futbol klubunun üzvü imiş. Məşqçisi Azadın gələcəkdə çox yaxşı futbolçu ola biləcəyini, belə bir istedada malik olduğunu deyirmiş. Axşamlar bu xəyalla klubun məşqlərinə baxmağa gedirmiş. Sel sularına qərq olduğu gün Azadın cibindən 74 lirə tapılıb. Azad gözyaşları içində son yolçuluğuna uğurlanıb. Ədirnə Amatör Spor Klubları Federasiyası 14 yaşlı Azadın ölümü ilə bağlı başsağlığı mesaji yayımlayıb.

**Məlahət**

# Kimi heyrətlənir, kimi narazıdır

## Şəhərin mərkəzində dayanacaq tərsinə qoyulub



**Görənlər heyrətlənir, istifadə etmək istəyənlər narazı qalır. Söhbət İstanbulun mərkəzində tərsinə qoyulmuş dayanacaqdan gedir.**

”Şərq” ”Doğan Haber Ajansı”na istinadən xəbər verir ki, haqqında danışılan ”məşhur” dayanacaq İstanbulun Beşiktaş səmtindədir. Buradakı avtobus dayanacağı ”ağzı” yola tərəf deyil, əks istiqamətə - binaya tərəf qoyulub. Dayanacaq tərs qoyulduğundan sərnişinlər dayanacağın içində deyil, ətrafında dayanıb gözləməli olurlar, çünki dayanacağın içində dayandıqda qarşıdan gələn avtobusları görmək mümkün deyil. Bu vəziyyət sərnişinləri çaşdırır. Sərnişinlər harada, necə gözləməli olduqlarını bilmirlər. Dayanacaq səkinin lap kənarında olduğundan ətrafda dayanmalı olan sərnişinlərin həyatı da təhlükə altında qalır. Dayanacağa bitişik bufet də bir tərəfdən darısqallıq yaradır. Sürücülər də avtobusları dayanacağa yaxınlaşdırmır, ətrafda dayanan sərnişinlərin qarşısına sürürlər. Bu dayanacaqdan sərnişinlər deyil, yorğunluğunu çıxarmaq üçün yer axtaranlar istifadə edir. Ətrafda dayanan sərnişinlər də dayanacağın bu formada qoyuluşuna bir anlam verə bilmir, onu məntiqsiz sayırlar. Vətəndaş dayanacaqda gözlədikdə və ya əyləşdikdə qarşıdakı bank binasını görür, qarşıdan gələn avtobusu deyil. Sanki bu dayancaq banka gələnlər üçün özəl olaraq qoyulub. İstanbul Elektrik Tramvay və Tunel Baş İdarəsindən verilən açıqlamada isə bildirilib ki, sözügedən dayanacağın olduğu yerdə səki dar, arxada isə bina girişi varmış deyə, tərs qoyulub.

**Məlahət**



# İddialara cavab verib

## Murad Bozla Tuba Büyüküstün sevgilidir?

**Müğənni Murad Boz İstanbulun Ortaköy səmtində paparassilərin obyektivinə tuş gəlib.**

Axşam.az türk mediasına istinadən xəbər verir ki, sənətçi aktrisa Tuba Büyüküstün ilə sevgili olma iddialarına cavab verib. Müğənni bildirib ki, Tuba ilə bir araya Gəlmələrinin səbəbi işdir. ”Serial çəkirik, dostlar” deyə, Murad əlavə edib.

*Qeyd edək ki, Murad ”Netflix”də yayımlanacaq ”Another self” serialında rol alacaq. Onun tərəf müqabilləri Tuba ilə yanaşı Seda Bakan, Serkan Altunorak, Rıza Kocaoğlu və Fırat Tanış olacaq. Hətta aktyorlar yaradıcı heyətə Bozla bağlı şikayət edərək ”Niyə peşəkar aktyor yox, Murad Boz” sözlərini deyiblər.*